Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

15-18
İYUN
2019-cu il
№ 105 (4003)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANIN XARİCİ DÖVLƏTƏ SATILMASI FİKRİ ERMƏNİSTANDA SÜRƏTLƏ YAYILIR - BAŞ NAZİRİN REAKSİYASI...

■ səh. 8 ■



■ səh. 6 ■

## Rusiya səfirinin İrəvanda Köçəryanla müəmmalı görüşü...

Ermənistanın Qarabağda gərginliyi artırmasının mahiyyəti - əsgər qətllərinin ardınca təyyarə vurmaq cəhdi... ■ səh. 8 ■

Azərbaycan XİN Ermənistanın sülhə əlverişli mühit bəyanatını ifşa etdi... ■ səh. 2 ■

Polad Aslanovun jurnalistlər korpusunda casus şəbəkəsi - jurnalistin səhifəsində onun İrana çox gedib-gəldiyi görünür... ■ səh. 4 ■

Ermənistana qarşı hibrid müharibədən tez-tez danışmağa başlayırlar - erməni politoloqlar Rusiyanın Ukrayna ssenarisini niyə xatırladır... ■ səh. 7 ■

Tankerlər üzərindən İrana qarşı başladılan yeni dünya savaşı... ■ səh. 10 ■

"Mango" geyim mağazası müştəriyə bir qiymət göstərib, başqa qiymətə satıb... ■ səh. 13 ■

Sabunçu dairəsində həmin həmindir - yeni tikintilər də tıxacları aradan qaldırmadı... ■ səh. 13 ■





Ermənistanın artan hərbi təxribatlarının ölkədaxili siyasi vəziyyətlə bağlılığı getdikcə dəqiqləşir ■ səh. 9 ■

Paşinyanın Avroittifaqı islahat nağılı ilə aldatmaq taktikası baş tutdu - 25 milyon avro da qopardı... ■ səh. 6 ■

Ermənistan kommunistləri Putindən Qarabağa qoşun yeritməyi istədi... ■ səh. 5 ■

■ səh. 3 ■ Xaricdəki radikal "antimillilərimiz" Fransa məhkəmələrinin antierməni qərarlarından məmnun qalmadı...



■ səh. 5 ■ Yeni avro əskinaslarının üstündə Məmməd Əmin Rəsulzadənin və Nuru paşanın şəkilləri...



■ səh. 11 ■ Elmi adların verilmə prosedurlarında Prezidentin sadələşdirmə sərəncamı necə qarşılandı...



■ səh. 12 ■ Təhsil naziri təmayüllü məktəblərlə bağlı maraqlı fakt açdı...



■ səh. 14 ■ Artıq piyin götürülməsi əməliyyatında daha bir qadın ölümü...





## Birinci vitse-prezident Mehriban Əliyeva bütün dünyada gender bərabərliyi hərəkatının ön sıralarında durur

**Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bütün dünyada gender bərabərliyi hərəkatının ön sıralarında durur və bu sahədə çoxşaxəli fəaliyyəti ilə öz töhfəsini verməkdədir.**

"Trend"in məlumatına görə, bunu Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) Baş katibi Altınbek Mamayusupov Bakıda "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında türk dünyası qadınlarının rolu" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

O qeyd edib ki, Azərbaycan hələ bir əsr öncə qərb ölkələrinin bir çoxundan əvvəl qadınlara səsvermə hüququ verən dövlət olub: "Hazırda bütün türkdilli ölkələrdə qadınların cəmiyyət və dövlət həyatında rolu müşahidə olunmaqdadır. TÜRK PA-ya üzv ölkələr dayanıqlı inkişafla bağlı məsələlərdə aktivlik göstərirlər. Üzv ölkələrdə gender bərabərliyi ilə bağlı normativ hüquqi baza yaradılıb".

A.Mamayusupov vurğulayıb ki, son illərdə hələ də qadınlar zorakılığın müxtəlif növlərinə məruz qalmaqdadır. O bildirib ki, bu problemlərin aradan qaldırılması istiqamətində addımlar atılır.

## Azərbaycan XİN Fransa məhkəməsinin qondarma "DQR"in qondarma "qardaşlıq sazişləri" qərarı ilə bağlı açıqlama yaydı

**Azərbaycan Xarici İşlər Nazirliyi Fransanın Qrenobl inzibati məhkəməsinin qondarma "DQR"in qondarma "qardaşlaşmış şəhərlər sazişləri" qərarı ilə bağlı açıqlama yayıb.**



Baki-xeber.com-un xəbərinə görə, açıqlamada deyilir:

"Xarici İşlər Nazirliyi Fransanın Qrenobl inzibati məhkəməsinin Drom departamenti ilə ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qondarma separatçı rejim arasında və bu ölkənin Bur le Valans, Valans, Burq dö Peaj kommunaları ilə Azərbaycanın işğal olunmuş Şuşa, Xankəndi və Xocavənd şəhərlərində qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət" orqanları arasında imzalanan qeyri-qanuni "sazişlər"in ləğv olunmasına dair cari ilin 6 iyun tarixli qərarını alqışlayır.

Fransanın Serji-Pontuaz inzibati məhkəməsinin qərarında olduğu kimi, Qrenobl inzibati məhkəməsinin də qəbul etdiyi bu qərar ölkənin yerli öznüidarəetmə orqanlarının Fransa qanunvericiliyi və beynəlxalq öhdəliklərinə zidd olaraq Azərbaycanın işğal edilmiş əraziləri ilə imzaladığı qanunsuz sənədləri ləğv edir. Bu qərarlar qanunun aliliyi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin vacibliyinin növbəti təzahürüdür. Hər hansı qanunsuz fəaliyyət, o cümlədən qeyri-qanuni rejimlərin təşviqi məğlubiyyətə məhkumdur. Səylərimizin münaqişənin beynəlxalq hüquq müstəvisində və beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq həllinə yönəldilməsi regiona davamlı sülh, inkişaf və hər kəsə qələbə gətirə bilər".

# Azərbaycan və Ermənistan XİN başçıları iyunun 20-də görüşəcək - Vaşinqtonda...

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün vaxtı açıqlanıb.**

Azərbaycan Xarici İşlər Nazirliyi Mətbuat idarəsindən baki-xeber.com-a verilən məlumata görə, Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında görüş iyunun 20-də Vaşinqton şəhərində keçiriləcək.

Görüş ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə keçirilir.



# Azərbaycan XİN Ermənistanın sülhə əlverişli mühit bəyanatını ifşa etdi...

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində deyilir ki, Ermənistan Xarici İşlər Nazirliyinin sonuncu bəyanatında qeyd edilən "sülhə əlverişli mühitin yaradılması" üçün bu bəyanata uyğun davranmaq lazımdır:**

"Təəccüblüdür, Ermənistan müdafiə nazirinin azərbaycanlı hərbi qulluqçuları məhv etmək əmri və snayperləri təltif etməsi sülh şəraitinin yaradılmasına nə dərəcədə uyğun gəlir?! Xatırladırıq ki, Azərbaycan Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə həll edilməsində və təbii ki, danışıqların irəlilədilməsində maraqlı tərəfdir. Vurğulayırıq ki, danışıqların ən mühüm məqsədlərindən biri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasıdır.



Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarında qanunsuz mövcudluğunu saxlayacağı halda, danışıqların başqa vacib hissəsi ola bilməz. Nə qədər tez Ermənistan bu reallığı dərk etsə, bir o qədər tez bölgəmizdə dayanıqlı sülh, inkişaf və rifah təmin olunacaq".

# Təhsil naziri Ceyhun Bayramov dərs ilinin mayın 31-də bitməsi barədə səslənən fikirlərə münasibət bildirdi

**Təhsil naziri Ceyhun Bayramov orta məktəblərdə dərs proqramlarının vaxtından əvvəl bitməsi səbəbindən tədrisin mayın 31-də başa çatması ilə bağlı səslənən fikirlərə münasibət bildirib.**

"Trend"in məlumatına görə, C.Bayramov deyib ki, bu məsələ ilə bağlı Təhsil Nazirliyinin rəsmi möqeyi dəfələrlə açıqlanıb.

O əlavə edib ki, 2015-ci ildən etibarən Nazirlər Kabinetinin müvafiq qərarı ilə tədris ili sentyabrın 15-i başlayır və iyun ayının 14-də bitir.

Nazirin sözlərinə görə, artıq yeni hazırlanan dərsliklər 32 deyil, 34 həftəlik tədris ili üçün hesablanır: "Bu illər ərzində yenilənməmiş dərsliklərlə bağlı Təhsil İnstitutu tərəfindən metodik tövsiyələr hazırlanaraq yerlərə göndərilib ki, mövcud dərsliklər 32 deyil, 34 həftəlik tədris ili üzrə təşkil oluna bilsin. Onu da qeyd edim ki, dərs ilinin müddətinin dəyişdirilməsi ilə bağlı qərar verilərkən orta aylıq hava temperaturu ilə bağlı məlumatlar da nəzərə alınıb".



C.Bayramov qeyd edib ki, sentyabrın ayının ilk iki həftəsi ilə iyun ayının ilk iki həftəsinin orta aylıq temperaturları arasında fərq yoxdur. Orta aylıq temperatur hesablanarkən isə son 10 ilin göstəriciləri nəzərə alınıb: "Qərar verilərkən nəzərə alınan digər göstərici havanın rütubətli ilə bağlı olub.

Havada rütubət nə qədər çox olarsa, isti havanı keçirmək bir o qədər çətin olur. Sentyabrın ayının əvvəlində olan rütubət göstəricisi iyun ayının əvvəlində olan göstəricidən yüksəkdir".

# Moldovada özünü legitim sayan iki hökumətdən biri Qüdslə bağlı qalmaqallı qərar verdi

**Son günlər siyasi böhran yaşanan Moldovada özünü legitim sayan iki hökumətdən biri Qüdslə bağlı qalmaqallı qərar verib.**

Baki-xeber.com xəbər verir ki, iki hökumətdən birinə rəhbərlik edən Baş naziri Pavel Filip ölkəsinin Təl Əvivdəki səfirliyinin Qüdsə köçürülməsi barədə qərar qəbul edib. Moldovanın qərarını qınayan İslam Əməkdaşlıq Təşkilatı isə Kişinyovu Qüds qərarından imtina etməyə çağırıb. Fələstin Xarici İşlər Nazirliyi də Moldovanın qərarına sərt reaksiya verib.

# Heydər Əliyevin qayıdışından sonrakı media məsələləri Dəyirmi masa müzakirələrinə çıxarılıb - Mətbuat Şurasının təşəbbüsü ilə...

**İyulun 14-də Beynəlxalq Mətbuat Mərkəzində "Heydər Əliyev siyasəti: sözün qurtuluşundan media azadlığına doğru" mövzusunda konfrans keçirilib. Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə reallaşdırılmış toplantı 15 iyun Milli Qurtuluş Gününə həsr olunub.**

Tədbiri giriş sözü ilə açan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı dövlətimizin qurtuluş tarixidir. Bu, ideoloji bir hadisədir. Çünki Heydər Əliyev xalqı azərbaycançılıq məfkurəsi ətrafında birləşdirdi. Xalqla dövlət arasında möhkəm bağ yaratdı. İnsanlarda dövlətin əbədiyaşarlığına inam formalaşdırdı. "Heydər Əliyevi böyük dövlət xadimi və milsilsiz siyasətçi kimi xarakterizə edən cəhətlər həddən artıq çoxdur. Biz onun böyüklüyünün jurnalistikaya, jurnalistlərə münasibətdə görünən tərəflərindən bəhs etmək üçün toplaşmışıq. O, jurnalistikanın missiyasına müstəsna dəyər verirdi. Medianın funksiya və vəzifələrini dövlət idarəçiliyi baxımından uzlaşdırmağı məharətlə bacaran, dünya tarixinin gördüyü çox az siyasətçilərdən idi", - deyən Ə.Amaşov vurğulayıb ki, ulu öndərin kütləvi informasiya vasitələrinə diqqət və qayğısı dövlət siyasətində də özünü göstərirdi.

Şura sədri çıxışında həmçinin 1998-ci ildə senzuranın aradan qaldırılmasına və media ilə bağlı fundamental qanunvericilik təşəbbüslərinə diqqət çəkib: "Bütün bunlara görədir ki, jurnalistlər hər zaman Heydər Əliyevi özlərinə dost biliblər. O da qələm sahiblərinə daim dost münasibəti ilə yanaşıb".

Bakı Dövlət Universitetinin jurnalistika fakultəsinin professoru Cahangir Məmmədli Heydər Əliyevin əsl millət fədafisi olduğunu vurğulayıb. O bildirib ki, Heydər Əliyev istər Sovetlər Birliyi dönəmində, istərsə də müstəqillik illərində millət üçün çalışmaq əzmini ortaya qoymuşdu. Burada söhbət yalnız idarəçilikdən deyil, eyni zamanda xalqı xilas etməkdən gedir. Heydər Əliyev əməli addımları ilə xalqın milli mənlik şüurunun qorunmasına çalışırdı. Bu zaman medianın roluna əsaslanırdı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxışında bildirib ki, Heydər Əliyev 15 iyunda hakimiyyətə qayıdışı ilə ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı bürümüş xaosa son qoydu. Bu, müstəqil dövlətçilik mərhələsinin başlanğıcı idi. Lakin həmin illərdə dövlətçiliyə qəsdlər də olurdu. Ulu öndər bu kimi təhlükəli meyllərin qarşısına həm də mediaya güvənərək çıxırdı. O, hara gedirdisə, jurnalistlərlə hərəkət edirdi. Hazırda dövlətin media siyasətinin xüsusiyyətlərindən bəhs edən V.Səfərli bu təməlin məhz Heydər Əliyev tərəfindən qoyulduğunu, Prezident İlham Əliyevin səriştəsi və həssas yanaşmasını ilə zənginləşdiyini vurğulayıb.




MŞ İdarə Heyətinin üzvü, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, Heydər Əliyev 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət idarəçiliyi sistemi yaratdı. Bu sistemdə medianın da böyük rol oynadığını vurğulayan baş redaktor əlavə edib ki, jurnalistlərin peşəkarlığı, media qunun vericiliyinin mükəmməlliyi və bir sıra digər mühüm cəhətlər medianın demokratik cəmiyyət quruculuğu yolundakı vəzifələrinə fundamental yanaşma tərzinin bənzərsiz nümunəsidir. Heydər Əliyev bu nümunənin müəllifi idi.

"Ədalət" qəzetinin baş redaktoru İradə Tuncay çıxışında Heydər Əliyev şəxsiyyətinin media ilə işləməyi bacarmaq xüsusiyyəti üzərində dayanıb. O bildirib ki, ulu öndər jurnalistlərin yazdıqlarını şəxsən oxuyurdu. "Bir jurnalist üçün ölkə başçısının onun yaradıcılığını izlədiyini bilməkdən dəyərli heç nə yoxdur", - deyən İ.Tuncay fikrinə aydınlıq gətirib.

"Dahi Frensis Bekon deyirdi ki, tarixi şəxsiyyətlər iki qrupa bölünür. Dövləti quran və dövləti qurub, yaşadan. Heydər Əliyev müasir Azərbaycan Respublikasını qurdu və yaşatdı", - deyən MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli vurğulayıb ki, Heydər Əliyevin müəllifi olduğu nəhəng layihələr yalnız Azərbaycanın beynəlxalq arenadakı yeri və rolunu müəyyənləşdirmədi, ümumən beynəlxalq siyasətin konturlarını dəyişdi. Bu, son dərəcə böyük, bənzərsiz tarixi missiya və xidmət nümunəsi idi.

MŞ İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışında Heydər Əliyevin media ilə təmaslarındakı ayrı-ayrı epizodlara toxunub. O, eyni zamanda bildirib ki, ulu öndər məmur-mətbuat ziddiyyətlərində hər zaman medianın təəssübünü çəkir və məmurlara tənqidə dözümlü olmağı tövsiyə edirdi. Bu isə ümumən demokratik cəmiyyət quruculuğu prosesinin, plüralizmin dərinləşməsi baxımından mühüm addım, nümunə idi.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin mətbuat katibi Allahverdi Məmmədli çıxışında ulu öndər Heydər Əliyevi həm böyük dövlət xadimi və siyasətçi, eyni zamanda mili-mənəvi dəyərlərə bağlı bütöv şəxsiyyət olaraq səciyyələndirən cəhətlərə toxunub, xatirələrini bölüşüb.

# Xaricdəki radikal "antimillilərimiz" Fransa məhkəmələrinin antiermәni qərarlarından məmnun qalmadı...

**Məlum olduğu kimi, mayın 29-da Fransanın Sersi-Pontuaz İnzibati Məhkəməsinin qərarı ilə bu ölkənin Arnuvil şəhəri və 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanan Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu təmsil edən Şeher inzibati bölgəsi arasında imzalanmış "dostluq xartiyası" qanunsuz elan olunaraq ləğv edilib.**

İyunun 11-də isə Qrenobl İnzibati Məhkəməsinin qərarı ilə Drom, Valans, Bur le Valans və Bur de Peaq departamentlərinin Dağlıq Qarabağdakı 4 "bələdiyyə" ilə imzalanmış "dostluq xartiyaları" qanunsuz sayılaraq ləğv olunub.

Beləliklə, Fransa qarabağlı ermənilərin separatizmini dəstəkləməməsi ilə yanaşı, dünya miqyasında separatizmə qarşı olduğunu bəyan etdi. Çünki sözügedən "xartiyalar" Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə zidd olmaqla yanaşı, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi bu ölkənin bitərəfliyini şübhə altına salırdı. Təbii ki, bütün bunlar Azərbaycanın uğurudur və buna bütün soydaşlarımız sevinməlidir.

Ancaq qəribədir ki, xaricdə fəaliyyət göstərən söyüşcül mühacirlər, hansı ki, müxalif mövqedən çıxış edirlər və ancaq qərəzli tənqidlə məşğuldurlar, bütün bunları sükutla seyr etdilər.



Fransa məhkəməsinin məlum qərarını bir kəlmə belə şərh etmədilər. Söyüş və təhqiri yaşam tərzinə çevirmiş bu şəxslər ümummilli məsələlərdə, həmişəki kimi, lal, kar və kor qaldılar. Faktiki olaraq milli təəssübkeşlik hissindən uzaq olduqlarını göstərdilər. Məlum oldu ki, bu kimi məsələlər xaricdə yaşayan və ölkəmiz əleyhinə təbliğat aparan orduxanların maraq dairəsinə daxil deyil. Yəni xaricdə bizə qarşı fəaliyyət göstərən

***Aydın Mirzəzadə:** "Xaricdəki antimilli ünsürlər tapşırıqla hərəkət etdikləri üçün, bu məsələdə susdular"*

"mühacirət müxalifəti" bir dəfə də olsun Dağlıq Qarabağdan danışmır. Çünki onlar, sadəcə, anti-Azərbaycan dairələrdən aldıqları təlimatlarla hərəkət edirlər. Odur ki, onlar adətlərinə uyğun olaraq, Fransa məhkəmələrinin çıxardığı bu qərarlardan da bir kəlmə belə söz açmadılar.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, xaricdəki antimilli ünsürlər tapşırıqla hərəkət etdikləri üçün, bu məsələdə susdular:** "Xaricdə fəaliyyət göstərən, Azərbaycandan çıxmış söyüşcül müxalifətin fəaliyyəti orada xüsusi olaraq tənzimlənir. Onlar heç bir addımı maddi mükafat olmadan həyata keçirmirlər. Etdikləri hər bir çıxış, paylaşdıqları videogörüntü üçün müvafiq mükafat alırlar. Heç də təsadüfi deyil ki, biz zaman-zaman onların hansısa kiçik bir məbləğ uğrunda bir-birilə qanlı savaşa çıxdıqlarının şahidi oluruq. Fransa məhkəməsinin Azərbaycanla bağlı verdiyi qərar, əslində, bu ölkənin özünün sivil, demokratik, hüquqi bir dövlət olması imicini möhkəmləndirməsi uğrunda atdığı bir addımdır. Avropanın bəzi ölkələrində vaxtaşırı separatçı meyllər baş qaldırır. Böyük Britaniyadakı Şotlandiya, İspaniyadakı Kataloniya gözümüz qarşısında olan məsələdir. Avropa dövlətləri separatçılığın nə qədər böyük bir problem olduğunun artıq fərqinə varmağa başlayıblar. Ona görə də Fransa müvafiq addımlar atır.

*"Onlar belə bir addım atsalar, o zaman söyüşə görə aldıqları vaxtaşırı maddi yardımdan məhrum olacaqlar"*

Bu, Fransanın böyüklüyüdür və bu ölkənin dövlətçilik yoluna yaraşan bir hərəkətdir. Ancaq bütün bunlar xaricdəki anti-Azərbaycan mərkəzlərinin maraqlarında deyil. Ona görə də xaricdə vaxtaşırı Azərbaycan dövlətçiliyinə qarşı çıxış edən həmyerlilərimiz belə bir tapşırıq almayıblar. Hətta bunu başqa cür də demək olar. Hesab edirəm ki, onlar belə bir addım atsalar, o zaman söyüşə görə aldıqları vaxtaşırı maddi yardımdan məhrum olacaqlar. Yəni bunun arxasında birbaşa tapşırıq və maddi maraq durur".

***Vidadi ORDAHALLI***

# Polad Aslanovun jurnalistlər korpusunda casus şəbəkəsi - jurnalistin səhifəsində onun İrana çox gedib-gəldiyi görünür...

***Azər Həsrət:** "Bu cür adamlar jurnalistikadan vicdansızcasına sui-istifadə edirlər"*

**Dövlət Təhlükəsizliyi Xidmətində aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində 1989-cu il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı, "xeberman.com" və "press-az.com" informasiya saytlarının təsisçisi və baş redaktoru Aslanov Polad İsrayıl oğlu dövlətə xəyanət cinayət əməlinə görə şübhəli şəxs qismində saxlanıb.**

DTX-dən verilən məlumata görə, müəyyən edilib ki, P.Aslanov xarici xüsusi xidmət orqanlarının əməkdaşları ilə respublikadan kənarda məxfi görüşlər keçirib, aldığı pul vəsaitinə dair qəbzləri imzalayıb, müntəzəm pul vəsaitləri ödənilməsi şərtilə maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilib.

O, xarici xüsusi xidmət orqanlarının əməkdaşlarından aldığı tapşırıqlar əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq istifadə etmək üçün topladığı məlumatları həmin orqanlara ötürüb, onların tapşırığı ilə mətbuatda, sosial şəbəkələrdə dövlət əleyhinə, hüquq-mühafizə orqanlarının qanuni fəaliyyətini nüfuzdan salmağa yönələn yazılar yayımlamağa razılaşıb.

P.Aslanov adları istintaq sirri kimi hazırda açıqlanmayan jurnalistləri gələcək əməkdaşlıq imkanları üzrə xarici ölkə ərazisində həmin xüsusi xidmət orqanı əməkdaşları ilə tanış edib.

İstintaq zamanı P.Aslanovun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq xarici xüsusi xidmət orqanı nümayəndələri ilə əməkdaşlığına dair çoxsaylı material əldə edilib, P.Aslanov törətdiyi cinayət əməlləri barədə ətraflı məlumat verib. P.Aslanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

P.Aslanov peşəkar jurnalist cameəsində tanınan şəxs deyil. Onunla bağlı məlumatları araşdıranda məlum olur ki, dini çevrələrlə sıx əlaqəsi olub. Maraqlıdır ki, o, iyunun 12-də xanımı ilə birlikdə ölkəni tərk edərək, İrana keçmək istəyərkən saxlanıb. P.Aslanov hərbi xidmətdən iki ay əvvəl təxris edilib. Onun Naxçıvanda həqiqi hərbi xidmət keçdiyi, ali təhsilli kimi bir il xidmət etdiyi deyilir. P.Aslanovun həyat yoldaşı mediaya açıqlamasında bildirib ki, gömrükdə saxlanandan sonra evlərində məhkəmənin icazəsi əsasında axtarış aparılıb və bəzi texniki avadanlıqlar götürülüb. P.Aslanovun səhifəsində paylaşdığı materiallardan görünür ki, o tez-tez İranın "Səhər" telekanalının efirində çıxış edib. İran televiziyası onu siyasi analitik kimi cəmiyyətə təqdim edib. DTX-nin yaydığı məlumatda diqqətçəkən məqamlardan biri isə P.Aslanovun bu ağır cinayət əməlinə bəzi jurnalistləri də cəlb etməsidir. Bu detal DTX-nin rəsmi məlumatında açıq şəkildə vurğulanır. Yəqin ki, istintaq çərçivəsində onun hansı jurnalistləri bu əmələ cəlb etdiyi barədə cəmiyyətə məlumat veriləcək. P.Aslanovun səhifəsini araşdırdıqda məlum olur ki, çox dar çərçivədə jurnalistlərlə təmasda olub. Ancaq yayılan məlumatdan bu qənaətə gəlmək olar ki, yaxın zamanlarda P.Aslanovun çevrəsinə aid olan və jurnalist adı ilə pərdələnmiş bəzi şəxslərlə də bağlı ciddi addımlar atılacaq, həmin adamların da məsuliyyətə cəlb ediləcəyi istisna edilmir. Jurnalist adı ilə pərdələnmiş bəzi şəxslərin pul müqabilində Vətənə xəyanət etməsinə meda mənsubları necə yanaşırlar?




*"Əminəm ki, aparılacaq geniş araşdırmadan sonra bütün şəbəkə ifşa ediləcək"*

**Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu adda peşəkar jurnalist tanımayıb: "Ola bilər ki, öz çevrəsində tanınır.** Amma normal jurnalistika ilə məşğul olanların arasında belə bir adam yoxdur. Biz dəfələrlə deyirik ki, jurnalistika ilə məşğul olanların kimliyi ilə bağlı qəti qərar verilməlidir. Hər yoldan ötənin jurnalistika ilə məşğul ola bilməsinə şəraitin yaradılması doğru deyil. Jurnalistika ilə belə şəkildə məşğul olanların axır-aqibəti bundan artıq olan deyil. Mən P.Aslanovun səhifəsinə göz gəzdirdim. Onunla daim bir yerdə, yaxın olan adamlarla fotolarını gördüm. Dostlarının da adı normal jurnalist fəaliyyətində hallanmayıb. Bu tip adamların Vətənə xəyanətdə ittiham edilməsi bizi heç də təəccübləndirmir. Bu cür adamlar jurnalistikadan vicdansızcasına sui-istifadə edirlər. Bunlar pula hər şeyi satmağa hazır adamlardır. Təbii ki, həmin pulu hansısa ölkənin xüsusi xidmət orqanları təklif edəndə almaqdan imtina etmirlər".

Ekspertin sözlərinə görə, rəsmi məlumatda bu işə başqa jurnalistlərin də cəlb olunduğuna dair məqamın olması olduqca təəccüblüdür: "Artıq burada şəbəkələşmiş, jurnalist vəsiqəsi arxasında gizlənən böyük bir heyətdən söhbət gedə bilər. Hesab edirəm ki, DTX P.Aslanovla yaxından işbirliyində olanların hamısı ilə bağlı araşdırma aparmalıdır. Çünki bu adamlar bir yerdə oturub-dururlarsa, təbii ki, bir-birinin gördükləri işlərdən də xəbərdardırlar. Ən azı bir-birilə fikir mübadiləsi edirlər. Bu baxımdan da çevrənin dərindən araşdırılması lazımdır. Əminəm ki, aparılacaq geniş araşdırmadan sonra bütün şəbəkə ifşa ediləcək. Biz bir daha görürük ki, bizim reketlik fəaliyyətinə görə qınadığımız adamlar gəlib hətta Vətən xaini belə çıxa bilirlər. Heç kim Azərbaycan dövlətinə qarşı istənilən bir dövlətlə işbirliyi etməməlidir. Bunun adı Vətənə xəyanətdir. Yəqin ki, əlavə şəxslərin də adı cəmiyyətə məlum olacaq. Bəlkə də DTX onları özü üçün müəyyən edib, sadəcə, istintaq sirri olduğu üçün yaymır.

Biz həmişə demişik ki, jurnalistikadan istənilən məsələ ilə bağlı sui-istifadə edən şəxs peşənin müqəddəsliyi ilə yanaşı, həm də dövlətinə xəyanət etməyin bir addımlığında olur. Onunla bağlı olan fotolara baxanda çox aydın bir mənzərə gözümüzün önündə canlanır".

***Məhəmmədəli QƏRİBLİ***



# ABŞ-ın qənaəti - Oman Körfəzində neft tankerlərinə hücumları İran törədib

**ABŞ Oman Körfəzindəki iki tankerə edilən hücuma görə İran hakimiyyətini günahlandırıb.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə açıqlama verən ABŞ Dövlət katibi Mayk Pompeo Oman Körfəzindən Yaponiyaya gedən iki neft tankerinə hücumlara görə İranın məsuliyyət daşıdığını deyib.

Pompeo İranın uzun müddətdir Hörmüz boğazından neft daşınmasına qarşı təxribat etdiyini, indi isə müxtəlif nöqtələrdə bənzər hücumlar təşkil etdiyini iddia edib. Dövlət katibi İranın Oman Körfəzindəki tankerlərə son hücumlara görə də məsuliyyət daşıdığını ifadə edib.

"Əlimizdəki kəşfiyyat məlumatları, hücumu həyata keçirmək üçün silahlar və peşəkarlığa baxdığımızda İranın məsuliyyət daşıdığını görürük. Bölgədə bu qarmaqarışıq hücumu təşkil edəcək resurs və bu gücə sahib hər hansı bir qrup yoxdur. Bu hücum İranın ABŞ və müttəfiqlərinə qarşı təşkil etdiyi təhlükəli hücumlardan sadəcə biridir. Bu provokativ hücumlar beynəlxalq sülh və təhlükəsizliyə, eləcə də dənizdə "səyahət azadlığı" qaydalarına açıq təhdid yaradır" - Pompeo deyib.

**Qeyd edək ki, sözügedən Yaponiya gəmilərinə hücum iyunun 13-ü səhər saatlarında baş verib. Gəmidəki 44 nəfərlik personal İran xilasediciləri tərəfindən xilas edilərək İranın Cask limanına aparılıb.**

**Ermənistan Kommunist Partiyası Rusiya Prezidenti Vladimir Putinə açıq məktubla müraciət edərək, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün danışıqlar prosesinə birbaşa müdaxilə etməyə çağırıb.**

# Ermənistan kommunistləri Putindən Qarabağa qoşun yeritməyi istədi...



***Məhəmməd Əsədullazadə:** "Ermənistan Kommunist Partiyasının Rusiya Prezidentinə müraciəti regionda sülh və təhlükəsizliyə zərbə vurur"*

Məktubda beynəlxalq vasitəçilərin münaqişə tərəfləri - Azərbaycan və Ermənistan arasında konsensus əldə edə bilmədiyi qeyd edilib. Müraciətdə Putindən şəxsən Qarabağ konfliktinə müdaxilə etməsi və bütün imkanlarından Azərbaycan rəhbərliyinə təsir üçün istifadə edilməsinə çağırış edilib. Erməni kommunistlər Qarabağda yaranacaq eskalasiyanın qarşısını yalnız Putinin ala biləcəyini bildiriblər: "Qarabağ konflikt zonasında Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi imkanları haqqında məsələyə baxılmasını aktual hesab edirik. Bu həm də erməni xalqının maraqlarına xidmət edəcək. Ermənistan Kommunist Partiyası regionda digər geosiyasi oyunçuların güclənməsini arzuolunmaz proses kimi dəyərləndirir. Ümid edirik ki, sizin situasiyaya birbaşa aktiv müdaxiləniz hadisələrin arzuolunmaz inkişafının qarşısını ala bilər".

Onu da qeyd edək ki, Ermənistan Kommunist Partiyası hər zaman Rusiyapərəst mövqe sərgiləyir. Sözügedən partiyanın Ermənistanda tərəfdarları elə də çox olmasa da, adıçəkilən siyasi təşkilat aktiv fəaliyyət göstərir. Bir neçə dəfə İrəvanda yerləşən Avropa qurumları qarşısında aksiya keçirib.

O da məlum olub ki, erməni kommunistlərinin bu müraciəti Ermənistanda birmənalı qarşılanmayıb. Bəzi erməni mətbuat orqanları bunu ölkəyə xəyanət kimi təqdim ediblər. Onların təbirincə, guya bu, müstəqil Ermənistanın mənafeyinə uyğun deyil.

Maraqlıdır, bəs ekspertlər Ermənistan kommunistlərinin Putinə məlum müraciətini necə dəyərləndirirlər?

*"Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəlməsi və regionda aktivliyi işğalçı ölkədə təşviş yaradır"*

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı:** "Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəlməsi və regionda aktivliyi Ermənistanda təşviş yaradır. Çünki bizim müasir silahlar əldə etməyimiz Qarabağı hər gün Azərbaycana yaxınlaşdırır. Mənfur erməni siyasi dairələri daim Rusiyaya arxalanaraq torpaqlarımızın işğalını davam etdiriblər. Hesab edirəm ki, Ermənistan Kommunist Partiyasının Rusiya Prezidentinə müraciəti regionda sülh və təhlükəsizliyə zərbə vurur. Bu həm də birbaşa sözügedən ölkənin işğalçı siyasətini ortaya qoyur. Erməni cəmiyyəti isterikaya düşüb və Türkiyə-Azərbaycan birgə təlimlərindən narahatlıq keçirir. Rusiya onsuz da Ermənistan üzərindən bizimlə vəkalət müharibəsi aparır. Qarabağ münaqişəsi məhz bu kontekstdədir. Buna baxmayaraq, Rusiya ordusunun rəsmi şəkildə Qarabağa yerləşməsi ciddi geosiyasi qarşıdurmaya gətirə bilər. Hesab edirəm ki, ermənilərin bu avantürası baş tutmayacaq və Rusiya buna getməz. Baxmayaraq ki, ermənilərin belə bir istəyi var".

***Vidadi ORDAHALLI***

**Azərbaycanın, Türk dünyasının görkəmli şəxsiyyətlərinin Avropa ölkələrində xatirələrinin müxtəlif formalarda əbədiləşdirilməsi prosesi başlayıb. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının da şəxsiyyəti diqqətdən kənarda saxlanmır.**

*"Bu, Azərbaycana, ümumilikdə, Türk dünyasına böyük hörmət və ehtiramın təzahürüdür"*

# Yeni avro əskinaslarının üstündə Məmməd Əmin Rəsulzadənin və Nuru paşanın şəkilləri...

***Məhərrəm Zülfüqarlı:** "Türk dünyasının iki böyük şəxsiyyətinin şəkilləri əks olunan pul nişanının basılmasını ancaq müsbət tərəfdən dəyərləndirmək olar"*




Məlumatlara görə, Avropa Mərkəzi Bankında üzərində Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri - Məmməd Əmin Rəsulzadənin və Bakı fatehi Nuru paşanın fotoları olan avro xatirə pul nişanı basılıb. Bu barədə "Bakı-Xəbər"ə məlumat verən tanınmış tədqiqatçı-jurnalist Rəsmiyyə Rzalı-Qarayevanın bildirdiyinə görə, türkiyəli kolleksiyaçı Özgür Honça bəy, layihənin gerçəkləşməsi üçün hərtərəfli dəstəyini əsirgəməyən Serhat Cemil Küçük bəy, şəkilləri seçən və mətn üzərində işləyən Türkiyənin görkəmli tarixci-araşdırmaçı yazarı, general-leytenant Nuri Paşanın komandanlığında Bakının qurtuluşu haqqında çox qiymətli arxiv araşdırmalarının və "Nuri Killigil" kitabının müəllifi Atilla Oralın dizaynı ilə ərsəyə gələn 0 göstərişli avro pul nişanı dövriyyədə istifadə olunan avro ilə eyni keyfiyyətdə, eyni özəllikdədir və eyni əskinasdan istifadə olunub. Avro ilə eyni dəyərə malikdir.

Onun bildirdiyinə görə, bundan əvvəl Avropa Mərkəzi Bankında Mustafa Kamal Atatürk və şanlı tariximizlə bağlı daha bir neçə bu cür xatirə nişanları basılmağa nail olunub.

Məlumatlara görə, bu cür pul nişanları dünyanın hər yerində hədiyyə, tanıtma, turizm və xatirə nişanı məqsədlidir, eyni məqsədlə Azərbaycana da edilən hədiyyə də 10 min ədəd basılıb. 5 mini Azərbaycana göndəriləcək, 2 mini Avropada yayılacaq, 3 mini də Türkiyəyə gətiriləcək.

**Avropa Mərkəzi Bankında üzərində M.Ə.Rəsulzadənin və Nuru paşanın şəkilləri olan avro pul nişanının basılmasını müsbət dəyərləndirən tarixçi-alim, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı hesab edir ki, bu, Türk dünyasına böyük hörmətin göstəricisidir.** "Hesab edirəm ki, bunun olduqca tarixi əhəmiyyəti var.

Türk dünyasının iki böyük şəxsiyyətinin şəkilləri əks olunan pul nişanının basılmasını ancaq müsbət tərəfdən dəyərləndirmək olar. Bu, Azərbaycana, ümumilikdə, Türk dünyasına böyük hörmət və ehtiramın təzahürüdür. Bunu Azərbaycan dövlətinə, tarixinə xüsusi müsbət münasibətin göstəricisi sayıram.

Avropa Mərkəzi Bankının bu işini, eləcə də bu layihənin müəlliflərini, təşəbbüskarlarını hər bir Azərbaycan vətəndaşı alqışlamalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan M.Ə.Rəsulzadənin şəklinin əks olunduğu pul nişanının basılması müsbət haldır. Düşünürəm ki, digər böyük şəxsiyyətlərin şəkli olan pul nişanları da buraxılsa yaxşı olar".

M.Zülfüqarlı, həmçinin, qeyd etdi ki, Bakının xilaskarı olan Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın da şəkli olan pul nişanının basılması qürurverici hadisədir. Nuru Paşanın Türk dünyası üçün önəmli şəxsiyyət olduğunu deyən M.Zülfüqarlının sözlərinə görə, 23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında bu böyük şəxsiyyətin də rolu danılmazdır: "Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu gəlib bizi növbəti soyqırımdan qurtarıb. Azərbaycan Xalq Cümhiyyətinin 23 ay yaşamasında məhz Qafqaz İslam Ordusunun böyük rolu olub.

Yoxsa Cümhuriyyət beşikdəcə boğulacaqdı. Biz də bu nümunədən istifadə etməliyik. Nuru Paşanın Bakıda heykəlinin qoyulması çox aktualdır. Düşünürəm ki, ona heykəl qoymalıyıq. M.Ə.Rəsulzadənin də bir neçə yerdə heykəli var, o heykəllərin də sayını artırmaq lazımdır. Biz bu cür nümunələri inkişaf etdirməliyik".

***İradə SARIYEVA***

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Ermənistanın eks-prezidenti Robert Köçəryanla görüşüb. Bunu erməni KİV-inə açıqlamasında Köçəryanın mətbuat katibi Viktor Soqomonyan deyib. O, görüşün Köçəryanın ofisində baş tutduğunu bildirib.**



Soqomonyan görüşün təkbətək keçirildiyini və bir saat davam etdiyini söyləyib. Əslində, Rusiyanın səfirinin hazırda Ermənistan hakimiyyətinə qarşı sərt müxalif mövqedə dayanan bir siyasətçi ilə görüşə təşəbbüs etməsi maraqlıdır. Çünki Rusiyanın xarici ölkələrdəki səfirliklərinin fəaliyyətində müxalif qüvvələrlə yaxından təmas qurmaq nadir hallarda müşahidə edilir. Belə olan təqdirdə, biz Köçəryana göstərilən aşırı marağı nə ilə izah edə bilərik?

**Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla bağlı müxtəlif versiyaların üzərində dayanmaq olar:** "Bu, ilk növbədə, onun əlamətidir ki, Rusiya öz yaxın adamlarını taleyin öhdəsinə buraxmır, onlarla, şəraitdən asılı olmayaraq, kontaktlarını davam etdirir və sadiqliyi qiymətləndirir.

# Rusiya səfirinin İrəvanda Köçəryanla müəmmalı görüşü...

## *Nəzakət Məmmədova: "İstisna deyil ki, səfir Köçəryanı yeni siyasi proseslərlə bağlı təlimatlandıraraq, ona lazımi istiqamətlər verir"*

Köçəryan isə Rusiyanın sadiq adamı kimi daim bu dövlətin nəzarətindədir. Təbii ki, o, indiyədək Rusiyanın nəzarəti altında fəaliyyət göstərib, onların bütün məxfi təlimatlarını həyata keçirib və onun bu dövlətlə çox mühüm bağlılığı var.

Bu cür əlaqələr heç bir zaman asanlıqla bitmir. Ona görə də Rusiya səfiri Köçəryanla görüşüb, onun ətrafında baş verən prosesləri izlədiyini, Köçəryana dəstəyini ifadə edir.

Eyni zamanda, istisna deyil ki, səfir Köçəryanı yeni siyasi proseslərlə bağlı təlimatlandıraraq, ona lazımi istiqamətlər verir, Moskvadan gələn direktivləri tetatet onun diqqətinə çatdırır. Bu həm də o deməkdir ki, Rusiya Ermənistandakı prosesləri diqqətdə saxlamaqda davam edəcək və Köçəryanı yenə də əsas siyasi fiqurlardan biri kimi siyasi səhnədə görmək arzusundadır.

*"Rusiya bununla həm də ABŞ-a meydan oxumaqda davam edərək..."*

Rusiya bununla həm də ABŞ-a meydan oxumaqda davam edərək, onun göstərişi ilə Paşinyanın həbs etdiyi adamlarını sonadək siyasi səhnədə istifadə edəcəyinin mesajını vermiş olur.

Rusiya həm də Köçəryanla işləməyə məcburdur, çünki proseslər sürətlə inkişaf edir, Paşinyana qarşı yeni siyasətçi yetişdirmək üçün zamana ehtiyac var və həmin müddətdə çox şey itirilə bilər. Odur ki, Rusiya "ən yaxşı yeni unudulmuş köhnədir" prinsipindən çıxış edərək Köçəryanla işləməyi üstün tutur və onunla yola davam edəcəyi istisna olunmur. Çünki yolayrıcında atları dəyişdirmirlər".

***Məhəmmədəli QƏRİBLİ***

**Avropa Birliyi Ermənistana 2019-cu ildə əlavə 25 milyon avro ayıracaq. Bu məlumat AB-Ermənistan Əməkdaşlıq Şurasının ikinci iclasından sonra yayılan ortaq bəyanatda yer alıb. Şura əlavə yardımı Ermənistanın islahat proqramlarının gerçəkləşdirilməsində qəti mövqeyinə görə ayırdığını bildirib.**



Bununla bağlı bəyanatda AB Şurasının 2017-2020-ci illərdə Ermənistana 160 milyon avro ayırdığı qeyd olunub. O da bildirilib ki, Ermənistanın islahat proqramına və tərəfdaşlıq barədə genişlənmiş sazişin həyata krçirilməsi ilə əlaqədar olaraq AB 2019-cu ildə illik yardım proqramına uyğun olaraq, bu ölkəyə əlavə 25 milyon avro ayırmağı qərara alıb.

Avropa Birliyi Şurası tərəfdaşlıq barədə genişlənmiş sazişin gələcəkdə tətbiq olunması mühümlüyünü vurğulayıb.

**Ermənistanla ticarətin genişləndirilməsi üçün genişmiqyaslı və genişləndirilmiş tərəfdaşlıq müqaviləsinin ticarət dövriyyəsini genişləndirmək üçün tətbiq olunmasının vacibliyi göstərilib.**

Göründüyü kimi, Paşinyan Avropa təsisatlarını aldada-aldada onlardan pul qoparmaqdadır. Hansı islahatlardan söhbət gedə bilər ki, Paşinyanın bu yöndə gördüyü işlər sosial narazılıqlara səbəb olur. Paşinyan məhkəmələri özündən asılı duruma salacaq addımlar atır. Onun islahatla bağlı dedikləri populizmdən o tərəfə keçmir.

# Paşinyanın Avroittifaqı islahat nağılı ilə aldatmaq taktikası baş tutdu - 25 milyon avro da qopardı...

## *Əli Orucov: "Avroittifaq məqsədyönlü şəkildə Paşinyan hökumətinə maliyyə yardımı göstərir"*

Belə olan halda, maraqlıdır, Avroittifaq aldanaraq Ermənistana maliyyə yardımı göstərir, yoxsa məqsədyönlü şəkildə bu yardımlar edilir?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Avroittifaq məqsədyönlü şəkildə Paşinyan hökumətinə maliyyə yardımı göstərir: "Düşünmürəm ki, Paşinyan Avropa İttifaqını aldada bilir. Bu o qədər də asan və mümkün olan iş deyil. Sadəcə, Avropa İttifaqı Paşinyan hökumətini bəsləyir.

Onlar istəmirlər ki, Cənubi Qafqazda iqtisadi baxımdan ən zəif durumda olan Ermənistan daha da geriləsin. O üzdən, müxtəlif proqramlar adı altında Ermənistana maliyyə yardımları edirlər. Paşinyan barədə saxta "islahatçı" imici yaradırlar.

*"Onlar istəmirlər ki, Cənubi Qafqazda iqtisadi baxımdan ən zəif durumda olan Ermənistan daha da geriləsin"*

Əslində, Avropa təsisatları özləri də yaxşı bilirlər ki, Paşinyan ölkədə islahat aparacaq gücdə deyil. Daxili ziddiyyətlər Ermənistanı getdikcə daha güclü şəkildə sarsıdır. İnqilabdan bir ildən çox ötməsinə rəğmən, Ermənistan hələ də sabitliyə qovuşa bilməyib. Vəd edilən inkişaf yoluna çıxa bilməyib. Mövcud durumda istənilən köklü islahat cəhdi iflasa məhkumdur. Ermənistanın inqilabçı rəhbərliyi reallığı dərk etmək əvəzinə, yenə populist bəyanatlarla ac-yalavac cəmiyyəti "doydurmağa" çalışır.

**Belə bəyanatlar isə adətən qısa perspektiv üçün uğurlu olur. Avropa təsisatları hesab edirlər ki, bu cür yardımlarla Ermənistanı Rusiyanın təsirindən çıxaracaqlar, amma bu mümkün olan iş deyil. Yaxşı olardı ki, Avropa İttifaqı Ermənistandan Qarabağdakı işğala son qoymağı tələb etsin".**

***Vidadi ORDAHALLI***

**Son bir neçə ildə dünya gündəmində yer alan əsas mövzulardan biri də hibrid müharibələrlə bağlıdır. İndi dünyanın ən böyük hərbi güc mərkəzləri belə bu cür hibrid müharibələrindən geniş istifadə edir. Mütəxəssislər hesab edir ki, bu, kifayət qədər mürəkkəb struktura və aparılma mexanizminə malik savaş üsuludur.**

# Ermənistana qarşı hibrid müharibədən tez-tez danışmağa başlayırlar - erməni politoloqlar Rusiyanın Ukrayna ssenarisini niyə xatırladır...

Qərb analitikləri hibrid müharibələrini münaqişələrdə çoxlu sayda hərbi və qeyri-hərbi dövlət alətlərinin kombinasiyası və istifadəsi kimi xarakterizə edirlər. Xüsusən də Rusiyanın Krımı ilhaq etməsindən sonra bu mövzu üzərində ən fərqli fikirlər səslənir.

Həmin hadisəni araşdıran ekspertlər vurğulayır ki, hibrid müharibəsi özündə müharibənin bir neçə elementini birləşdirir, siyasi və hətta iqtisadi vasitələrin tətbiqini nəzərdə tutur. Ancaq onun uğurluluğu ilk növbədə informasiyanın geniş istifadəsindən çox asılıdır. Məhz informasyaların yayılması ilə müəyyən şərait formalaşdıqdan sonra xüsusi əməliyyat qrupu bundan istifadə edir. Yuxarıda qeyd olunan Krım təcrpübəsi bunu tam dəqiqliyi ilə nümayiş etdirdi. Məhz belə bir vaxtda maraq doğuran məqamlardan biri Rusiya-Ermənistan münasibətləri və burada hibrid müharibələrinin elementlərindən istifadə olunmasıdır. Ümumiyyətlə, ötən ilin mayından Ermənistanda belə bir fikir hakimdir ki, Ermənistan-Rusiya xəttində hibrid savaş gedir. Daha doğrusu, Nikol Paşinyan hakimiyyətinin Moskva qarşısında mərkəzdənqaçma siyasəti Kremlin İrəvana şarşı belə bir savaşa başalmasına rəvac verib. Erməni siyasi şərhçi Aykazn Qaqriyanın fikrincə, Rusiya Ermənistanın Qərblə istənilən əməkdaşlığına qarşıdır və Kreml çətin ki, baş verənləri bağışlayar: "Rusiya və Ermənistan arasında ziddiyyət pərdə arxasında getdikcə şiddətlənir". Erməni şərhçi Gürcüstan və Ukrayna ssenarisini yada salıb və Qərbin Rusiyanın müdaxiləsi qarşısında heç nə edə bilmədiyini vurğulayıb: "Rusiya Gürcüstan və Ukraynada istədiyini etdi. Bununla göstərdi ki, o istəyəndə dağıda bilir. Bu baxımdan, Rusiya Ermənistana da müdaxilə edə bilər. Qərb bunu gözə alaraq keçmiş səhvlərini təkrarlamamalı və Ermənistanı xilas etməlidir. Çünki Rusiya, Ukrayna və Gürcüstanda olduğu kimi, Ermənistanda da hibrid savaşına başlayıb. Halbuki, bu savaş birbaşa Qərbə qarşıdır".

Ermənistanın "1-in.am" portalı da hibrid savaşının getdikcə kəskinləşdyini yazır: "Paşinyan bu günlərdə hökumətin yığıncağı vaxtı bildirib ki, bəzi güclər Ermənistana qarşı hibrid savaş aparır. Paşinyan deyib: "Ölkədə hərcmərclik durumu yaratmaq istəyən adamlar var və bacarmadıqlarından sosial şəbəkələrdə, mətbuatda yazmaq qərarına gəlirlər ki, hərcmərclik vəziyyəti, daxili-siyasi qarışıqlıq və təhlükəli durum yaransın. Bu artıq, doğrudan da milli təhlükəsizlik məsələsidir. Yəni bu adamlar Ermənistana qarşı hibrid savaşı aparırlar və bu adamların adı-soyadı çox konkret bəllidir. Niyə bu oğru quldurlar özlərini bu ölkədə yaxşı hiss etməlidirlər, kölgədə gizlicə dolaşmalıdılar, ümumiyyətlə, onlar kimdir? Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır".

Politoloq Arkadi Vardanyan hesab edir ki, baş nazirin əndişəsi tamamilə əsaslıdır: "Mən onların kim olduqlarını və qaynağı da bilirəm. Bu haqda dəfələrlə danışmışam və vurğulamışam - qaynaq Rusiyadır. Və Rusiya təkcə bizə qarşı deyil, Avropa yolunu seçən, yeni demokratiyaya gedən bütün keçmiş sovet respublikalarına qarşı da hibrid savaş aparır. Əlbəttə, bu, Rusiyaya əl vermir və o, müxtəlif ərazilərdə, son zamanlar isə bizdə də qabarıq şəkildə bu savaşa hər cür təşəbbüs edir".



Arkadi Vardanyan "Bəs Ermənistanda buna kim xidmət edir" qeydinə belə cavab verib: "Bunlar satılmış adamlar, keçmiş cinayətkar hakimiyyətin törəmələri və əlaltılarıdır. Zaman keçdikcə təhlükə güclənir. Mən görürəm ki, hərcmərclik durumu yaratmağa cəhd edilir, inqilabi hökumətin ölkəyə başçılıq etmək durumunda olmadığını göstərməyə getdikcə daha çox səy edilir".

Arkadi Vardanyan sabiq prezident Köçəryanın Apelyasiya Məhkəməsindəki işi üzrə məhkəmə iclaslarını da yada salıb. O deyib: "Boğazını yırtaraq "Köçəryan, qayıt, bizi xilas elə" kimi ruhda bağıran adamlar var idi. Bu, hibrid savaşın bəlirtilərindən biridir". Yekunda isə o deyib: "Təkrar etməkdən yorulmuram, inqilabi hökumətin ən böyük səhvi bu idi ki, keçmiş rejimə siyasi qiymət verilmədi. Bu qiymət bütün dünyanın gözü qabağında verilməyincə, ictimaiyyətimiz əmin olmayacaq ki, yeni hakimiyyət aydın addımlarla demokratiyaya gedir. Bu qiymət verilməyincə, qalan hər şey mənasız və məntiqsiz olur".

Politoloq Robert Gevondyanın fikrincə, söhbət xarici güclərdən gedirsə, konkret düşmənləri var - belə savaş törətmək üçün hər hansı təsadüfü əldən buraxmayan Türkiyə və Azərbaycan. O deyib: "Bizim öz maraqları olan müttəfiq dostlarımız da var və onlar öz maraqlarına uyğun hərəkət edirlər. Daxili siyasi meydana üz tutsaq, müxaliflər, özəlliklə Köçəryanın qüvvəsi və Respublika Partiyasının keçmiş üzvləri bir qütb toplamağa və düzəltməyə çalışırlar".

Gevondyan vurğulayıb ki, təbii, hakimiyyətin nüfuzu bir müddətdən sonra düşəcək və bu güclər yeganə alternativ olmağa cəhd edirlər: "Bu halda hakimiyyətin vəzifəsi hibrid savaş prosesi zamanı hakimiyyətin ötürüldüyü anda alternativ olacaq müxalif güclərin müxtəlif qütblər qurmaqla bir yerə toplaşmasına imkan verməməkdən ibarətdir". Onun müşahidəsinə görə, daxili-siyasi mübarizə prosesi gedir, bu da normal sayılır, amma elə etməyə çalışmaq gərəkdir ki, hər şey siyasi mübarizə qaydası çərçivəsində baş versin. O yekunlaşdırıb: "Bizdə siyasi meydan təzəcə formalaşdığından, son dərəcə ayıq olmaq gərəkdir. Sivil mübarizə üsulu əvvəllər olmayıb, bütün qaydalara keçmiş rejim qərar verirdi. Konkret qeyd edim ki, Abovyanda Haqik Tsarukyanın sədri olduğu "Çiçəklənən Ermənistan" Partiyasının namizədi qalib gəldi, respublikaçılar və köçəryançılar bunu öz qələbələri, yəni "qaralar"ın (şahmat fiqurları) qələbəsi kimi təqdim etməyə çalışdılar. Onların hədəfi ölkəni iki rəngə bölmək idi, alternativ rəng onlar olsun, hakimiyyətin ötürüldüyü vaxt yeganə alternativ olsunlar deyə. "Ağlar"ın yeganə hədəfi isə budur ki, siyasi meydan heç bir halda ikiqütblü deyil, müxtəlif qütblü olsun".

***Nahid SALAYEV***

# Paşinyanın xarici dövlətə satılması fikri Ermənistanda sürətlə yayılır - Baş nazirin reaksiyası...

## *Hatəm Cabbarlı: "Bu qalmaqalı Paşinyan iqtidarına yönəlik bir psixoloji təsir üsulu kimi də dəyərləndirmək mümkündür"*

**Ermənistanın daxili ictimai rəyində Nikol Paşinyanın xarici ölkələrin casusu olması ilə bağlı iddialar ciddi xarakter almağa başlayıb. Əgər əvvəl bu söz-söhbətlər şayiə kimi yayılırdısa, artıq mövzu siyasi kuluarlarda müzakirə olunur. Hətta vəziyyət o yerə çatıb ki, N.Paşinyanın özü bu məsələyə reaksiya vermək məcburiyyətində qalıb.**



Paşinyan bildirib ki, onun barəsində deyilənlər həqiqəti əks etdirmir: "Əgər belə faktlar varsa, onda məni mühakimə etməlidirlər. Ucqar bir kənddə yaşayan kəndli bu iddiaları televizorda eşidirsə, o bunun araşdırılmasında maraqlı olacaq. Buyursunlar. Belə faktlar varsa, ortaya qoysunlar".

Paşinyanla bağlı olan casus söhbətinin qızışması və onun məsələyə şəxsən reaksiya verməsi nəyin əlaməti sayıla bilər?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son vaxtlar Nikol Paşinyan və onun hakimiyyətinə qarşı sabiq hakimiyyət və digər nümayəndələrin çıxışları intensiv və radikal məzmun almağa başlayıb:** "Bura casus və xarici ölkələrlə əməkdaşlıq məsələsini də aid edə bilərik. Hətta Ermənistan mətbuatında belə yazılar gedir ki, Paşinyanı hakimiyyətə xarici qüvvələr şərtlə gətiriblər. İddia olunur ki, Baş nazir indi həmin qüvvələrlə əməkdaşlıq etməyə razıdır. Əslində, Paşinyan özünü cavab vermək məcburiyyətində hiss edərək belə bəyanat verib. Deyilənləri təkzib edib. Bildirib ki, bu üsullarla onu Ermənistanda gördüyü işlərdən çəkindirmək istəyirlər. Hətta jurnalist "niyə məhkəməyə vermirsiniz" kimi sual da ünvanlayıb. O, cavabında deyib ki, onda söz azadlığına basqı etdiyimi deyərlər.

*"Qarşıda Paşinyanı daha ciddi sınaqlar gözlədiyi üçün, bunu hadisələrin jurnalı saymaq olar"*

Əlbəttə, bu ciddi iddianı sübut etmək üçün ortaya sənəd qoyulmalıdır. Hələ ki, belə bir sənəd ortada yoxdur. Paşinyan da buna əsaslanaraq söhbətdən yayına bilir. Mənə elə gəlir ki, bu, iddiadan o tərəfə keçməyəcək. Çünki Paşinyan son bir ildə hakimiyyətdə lazımınca möhkəmlənə bilməyib. Bundan sonra da bunu bacarmayacaq. Belə təşəbbüs göstərsə də, bunu bacara biləcəyi mümkün deyil. Bu qalmaqalı Paşinyan iqtidarına yönəlik bir psixoloji təsir üsulu kimi də dəyərləndirmək mümkündür. Qarşıda Paşinyanı daha ciddi sınaqlar gözlədiyi üçün, bunu hadisələrin jurnalı saymaq olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın Qarabağda gərginliyi artırmasının mahiyyəti - əsgər qətllərinin ardınca təyyarə vurmaq cəhdi...

**Son günlər Ermənistanın təmas xəttində vəziyyəti gərginləşdirmək meylləri açıq nəzərə çarpır. Xüsusilə də bu təxribatlarda beynəlxalq ictimaiyyətə mesaj vermə cəhdləri olduğu aydın görünür. ATƏT-in Minsk Qrupu həmsədrlərinin Bakıda olduğu bir vaxtda ermənilər ordumuzun mayorunu snayperdən açılan atəşlə şəhid etdilər.**




Bunun ardınca növbəti təxribata cəhd edən zaman onların bir əsgəri öldürüldü. Ermənistanın müdafiə naziri açıq şəkildə bəyan etdi ki, həmin əsgərin qisasını alan hərbçiyə şəxsən mükafat verəcək. Belə də etdi.

Tez-tez təxribatlara cəhd edən erməni ordusunun layiqli cavabı verilir. Artıq Ermənistan raketlərlə təxribata əl atıb. Öz səmamızda təlim uçuşları keçirən qırıcılarımıza atəş açır. İyunun 12-də səhər saatlarında cəbhənin Füzuli istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin planlı təlim uçuşları həyata keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu zaman Ermənistan silahlı qüvvələri "Osa" zenit-raket kompleksini tətbiq etməklə aviasiya vasitələrimizi vurmağa uğursuz cəhd göstəriblər. Zenit-raket kompleksindən buraxılan 2 ədəd raket hədəfə dəyməyərək havada partlayıb.

Bu, hərbi pilotlarımızın ustalığı və aviasiya vasitələrimizdə quraşdırılmış müasir cihazlar sayəsində, digər tərəfdən isə düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması, onun idarə olunmasına təhkim edilmiş döyüş heyətinin isə hazırlıq səviyyəsinin aşağı olması nəticəsində mümkün olub.

Düşmən tərəfindən buraxılan raketlərdən birinin hərəkət traektoriyası və hədəfdən yan keçməsi anı aviasiya vasitələrimizin təlim uçuşlarının çəkilişlərini həyata keçirmək üçün havaya qaldırılan pilotsuz uçuş aparatımız tərəfindən qeydə alınıb. Qeyd edək ki, Ermənistanın cəbhədə təxribat yaratmaq cəhdlərinin daha geniş vüsət ala biləcəyini həmin ölkənin müdafiə naziri öz dilindən etiraf edib.

İrəvanda jurnalistlər müdafiə naziri David Tonoyandan təmas xəttindəki vəziyyət barədə soruşublar. Erməni KİV-inin verdiyi məlumata görə, Tonoyan hazırda vəziyyətin "sabit olduğunu" açıqlayıb. "Dünənki və bugünkü məruzələrə əsasən hazırkı məqamda vəziyyət qismən stabildir" - Tonoyan qeyd edib.

Jurnalistlər bu dəfə Tonoyandan müharibə təhdidi barədə soruşublar, nazir onları əmin edib ki, müharibə təhlükəsi real olsa, bu haqda hökmən məlumat verəcək. Jurnalistlər əl çəkməyiblər, müdafiə nazirindən təmas xətti boyu Azərbaycan Ordusunun pilotsuz təyyarələrinin uçuşları haqda soruşublar. Tonoyan deyib: "Bizim pilotsuz aparatlar da bütün perimetr boyu uçuşlar həyata keçirir".

Jurnalistlər Tonoyana Azərbaycan tərəfinin xüsusi təyinatlılar cəmləşdirməsi haqda xatırladıblar. Tonoyan isə qeyd edib ki, onlar tərəfdən də təmas xəttində xüsusi təyinatlı dəstələr var.

Ermənistanın bu təxribat cəhdləri nəyə hesablanıb?

Politoloq Qabil Hüseynli hesab ebir ki, Ermənistan tərəfi sərhəddən xeyli uzaq məsafədə təlim keçirən, təmas xəttini keçməyən və erməni hərbi hissələrinin üzərindən uçmayan hərbi təyyarələri vurmağa cəhd edirsə, bu, atəşkəsin kobud şəkildə pozuntusudur: "Ermənilər atəşkəsi mütəmadi pozublar. Bunların nəticəsində bizim çoxlu sayda əsgər və zabitimiz şəhid olub. Ancaq son günlər ərzində baş verənlər ermənilərin tamamilə başqa niyyətlərindən xəbər verir. Bəllidir ki, Ermənistanın atəşkəsi pozmaqda bir neçə məqsədi var. Bunlardan biri danışıqlardan yayınmaqdır. Digəri daxili qəzəbi mühiribəyə kökləyib Paşinyan hakimiyyətinin ömrünü uzatmaqdır. Ermənistanın davranışları göstərir ki, onlar lokal deyil, iri-miqyaslı mühariyə belə hazırlıq görürlər. Birdən-birə Azərbaycan ərazisi üzərində, təmas xəttindən xeyli kənarda aviasiya vasitələrinə atəş açılması beynəlxalq hüquq normalarına, eləcə də müharibəylə bağlı razılaşmalara kökündən ziddir. Bu, erməni tərəfinin növbəti provokasiyasıdır. Əvvəla bu təyyarələr təmas xətti boyunca uçsa belə, ən azından, təyyarənin uçuş xətti ilə sərhəd xətti arasında 50 km məsafə olur. Hərbi təlimlər əsasən döyüş hazırlığı xarakteri daşıyır. Bu təyyarələr çox böyük səs gücünə malikdir və cəbhəboyu xəttində erməni əsgərlərinə və burada yaşayan erməni əhalisinə mesaj məqsədi güdür. Azərbaycanın hərbi aviasiya təlimlərini keçirməkdə əsas niyyəti müharibə başlayacağı təqdirdə aviasiyanın gücündən tam istifadə ediləcəyini göstərməkdir. Təbii ki, Azərbaycan müharibədən qorxmur və hətta torpaqları işğaldan azad etməyin bütün mümkün yollarını nəzərdən keçirir. Amma Azərbaycan bilir ki, bu prosesləri nə vaxt və necə yerinə yetirmək lazımdır. Bu gün aviasiya sahəsində tam üstünlük Azərbaycana məxsusdur. Azərbaycanın qırıcı, bombardmançı, eləcə də pilotsuz kamikadze təyyarələri Ermənistan ərazisində istənilən nöqtəni vurmaq qabiliyyətinə malikdir. Onların atdığı raketin hədəfdən necə yayındığı bir daha Azərbaycan pilotlarının peşəkarlığını və hərbi texnikamızın üstünlüyünü nümayiş etdirdi".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın artan hərbi təxribatlarının ölkədaxili siyasi vəziyyətlə bağlılığı getdikcə dəqiqləşir

**Son dövrlərdə cəbhə xəttində baş verənlər burada yeni bir savaşa intensiv hazırlıq getməsinə dair təəssüratlar yaradır. Özü də belə görünür ki, daxili problemlər içində boğulan Ermənistan cəbhədə gərgin vəziyyətin yaranmasında olduqca maraqlı tərəf qismində çıxış edir. Elə bu səbəbdən düşmənin cəbhə təxribatları əhəmiyyətli dərəcədə artıb. Məhz bundan irəli gəlir ki, son bir neçə həftə ərzində cəbhə xəttində ciddi gərginlik müşahidə olunur.**

Ermənistan ordusu müntəzəm təxribatlara əl atır. Nəticədə Azərbaycan ordusunun mayoru Aqil Ömərov və hərbçisi Elşən Xəlilov həlak olub. Düzdür, düşmənin təxribatları cavabsız qalmır. Elə Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, işğal altında olan Dağlıq Qarabağ bölgəsində atışma nəticəsində daha bir erməni əsgəri məhv edilib. Qeyd olunur ki, iyunun 13-də saat 17:05 radələrində düşmənin Qarabağın şimal istiqamətində yerləşən döyüş postunda 1999-cu il təvəllüdlü hərbi qulluqçu Artyom Vazgen Xaçatryanın meyiti aşkar edilib. Onun qarşı tərəfdən aldığı güllə yarasından öldüyü bildirilir. İndilikdə belə görünür ki, düşmən aldığı bütün dərslərə rəğmən, atəşkəsi pozmaqda davam edəcək. Özü də məsələnin maraqlı tərəflərindən biri budur ki, atəşkəsin pozulması zamanı artıq ağır silahlardan da istifadə olunur. Düşmənin elə bu günlərdə minaatanlardan istifadə etməklə atəşkəsi pozması bunun əyani təsdiqidir. Digər tərəfdən artıq o da məlumdur ki, cəbhənin Füzuli rayonu istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin planlı təlim uçuşları həyata keçirilən zamanı Ermənistan silahlı qüvvələri OSA zenit-raket kompleksini tətbiq etməklə aviasiya vasitələrimizi vurmağa cəhd göstərib. Düzdür, düşmən istəyinə nail ola bilməyib. Amma baş verənlər erməni tərəfinin xeyli azğınlaşdığını göstərir. Ehtiyatda olan polkovnik Şair Ramaldanov da məsələyə bu prizmadan yanaşır: "Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrini OSA zenit-raket kompleksindən atəşə tutdurmaqla cəbhə xəttində vəziyyəti gərginləşdirmək istəyir. Düşmənin bundan sonra da belə təxribatlara əl atacağı istisna deyil".

Onun fikrincə, Ermənistan bu gərginlikdən istifadə edərək danışıqlara təsir göstərmək istəyir: "Bu onu göstərir ki, Dağlıq Qarabağda gərginlik artmaqda davam edir. Ermənilər belə təxribatlar törədəcəyini gizlətmirdi. Digər tərəfdən, biz Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salsaq görərik ki, Ermənistanda daxili gərginlik yarandıqda və ya danışıqlar ərəfəsində düşmən cəbhə bölgəsində təxribatların sayını artırır və atəşkəs daha çox pozulur. Sadəcə, ermənilər heç vaxt bizim pilotlarımıza atəş açmırdılar. Düşmən son illərdə ilk dəfədir hava hücumundan müdafiə sistemini işə salıb və raketlə Azərbaycanın aviasiya vasitələrini vurmağa uğursuz cəhd edib. Bizim pilotlarımız da məharətlə bu vəziyyətdən çıxa biliblər və düşmən istəyinə çata bilməyib".

Ş.Ramaldanov əlavə edib ki, Azərbaycan müharibə şəraitindədir və belə hadisələr gözləniləndir: "Bizim Silahlı Qüvvələrimiz cəbhə bölgəsində hər an düşmənin istənilən təxribatına cavab verməyə hazır vəziyyətdədir. Ermənistan rəhbərliyi bundan nəticə çıxarmalıdır. Düşmən ağıllanmasa, Azərbaycan bundan nəticə çıxarmalıdır və düşmənə öz gücünü göstərərək torpaqlarını azad edib, ərazi bütövlüyünü bərpa etməlidir".

Digər ekspertlər də bu qənaətdədir ki, yaranmış vəziyyətdə hansısa dəyişiklik olmasa, Azərbaycan düşmənə hərbi gücünü nümayiş etdirməli olacaq. Çünki Ermənistan tərəfi sərhəddən xeyli uzaq məsafədə təlim keçirən, təmas xəttini keçməyən və erməni hərbi hissələrinin üzərindən uçmayan hərbi təyyarələri vurmağa cəhd edirsə, bu, atəşkəsin kobud şəkildə pozuntusu olmaqla bərabər, yeni savaşa açıq çağırışdır. Elə politoloq Qabil Hüseynli də vurğulayır ki, İrəvan daxili təzyiqlərdən yaxa qurtarmaq üçün cəbhədə müəyyən lokal savaşın olmasına can atır. Ekspert atəş açılan təyyarələrin mürəkkəb müharibə şəraitinə yaxın döyüş hazırlıqları, bomba, raket atma, eləcə də digər növlü silahlardan atəş açmaq təlimləri həyata keçirdiyini bildirib: "Birdənbirə Azərbaycan ərazisi üzərində, təmas xəttindən xeyli kənarda aviasiya vasitələrinə atəş açılması beynəlxalq hüquq normalarına, eləcə də müharibə ilə bağlı razılaşmalara kökündən ziddir. Bu, erməni tərəfinin növbəti provokasiyasıdır. Əvvəla, bu təyyarələr təmas xətti boyunca uçsa belə, ən azından təyyarənin uçuş xətti ilə sərhəd xətti arasında 50 kilometr məsafə olur. Hərbi təlimlər əsasən döyüş hazırlığı xarakteri daşıyır. Bu təyyarələr çox böyük səs gücünə malikdir və cəbhəboyu xəttində erməni əsgərlərinə və burada yaşayan erməni əhalisinə mesaj məqsədi güdür. Azərbaycanın hərbi aviasiya təlimlərini keçirməkdə əsas niyyəti müharibə başlayacağı təqdirdə aviasiyanın gücündən tam istifadə edələcəyini göstərməkdir". Politoloqun sözlərinə görə, Ermənistan tərəfinin növbəti dəfə belə təxribatçı addım atması Azərbaycanı müharibəyə təhrik etmək məqsədi daşıyır: "Bütün bunlar onu göstərir ki, ermənilər özlərini həddindən artıq həyasız və davakar ruhda aparırlar. Onlar Azərbaycanı müharibəyə təhrik etmək istəyirlər, amma Azərbaycan bilir ki, bu prosesləri nə vaxt və necə yerinə yetirmək lazımdır. Bu gün aviasiya sahəsində tam üstünlük Azərbaycana məxsusdur. Azərbaycanın qırıcı, bombardmançı eləcə də pilotsuz kamikadze təyyarələri Ermənistan ərazisində istənilən nöqtəni vurmaq qabiliyyətinə malikdir". Q.Hüseynlinin fikrincə, sonuncu təxribat cəhdi həm də bir növ bizim aviasiya üçün özünütəsdiq imkanıdır: "Düşünürəm ki, bu uçuşlar ermənilərin potensial imkanlarını öyrənmək üçün yaxşı bir şəraitdir. Onsuz da aviasiya təlimləri artıq bir neçə gündür başlayıb. Ordumuzun istismarında olan bütün qırıcı, qırıcı-bombardmançı, həmçinin pilotsuz kamikadze təyyarələrindən geniş istifadə edilir. Bu, indiyə qədər keçirilən yerüstü hərbi təlimlərin sonuncu fazasıdır. Bu təlimlər həm əməliyyat şəraitinin öyrənilməsi, həm də düşmən tərəfinin özünün əhval-ruhiyyəsinə təsir üçün çox prinsipial əhəmiyyətə malikdir".

İndi maraq doğuran məqam bundan ibarətdir ki, Ermənistanın təxribatları davam etdiyi şəraitdə Azərbaycan nədən düşməndən hərbi cəhətdən də kiyfayət qədər üstün olduğu halda genişmiqyaslı əməliyyatlara start vermir. Ekspertlər hesab edir ki, Azərbaycan, əslində danışıqlar prosesinin növbəti mərhələsini gözləyir. Bu mərhələdə də istənilən nəticə əldə olunmazsa, Bakı hərbi müstəvidə İrəvana yenidən dərs keçməli olacaq. Bu arada xatırladaq ki, cari ilin 20 iyun tarixində Vaşinqton şəhərində Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun erməni həmkarı Zöhrab Mnatsakanyanla ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə görüşü keçiriləcək. Məhz bu görüşdən sonra istənilən nəticə əldə olunmayacağı təqdirdə cəbhədə genişmiqyaslı savaşın başlanmasını gözləmək olar. Bunu Ermənistanın "1in.am" portpalı da xüsusi olaraq vurğulayır: "Proseslər hər şeyin savaşa doğru getdiyini göstərir. Özü də baş verənlərdən belə çıxır ki, savaşın başlanmasına rəvac verən tərəf Ermənistandır. Belə ki, bu günlərdə Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin katibi Artsun Ovhannisyan məlumat yayaraq bildirib ki, müdafiə naziri Davit Tonoyan rəqibin açdığı atəş nəticəsində ölən Sipan Melkonyanın qətlinin qisasını almaq üçün cəza tədbirlərinin yerinə yetirilməsində fərqlənən hərbi qulluqçuları yüksək mükafata layiq görüb. Faktiki olaraq erməni tərəfi bu addımla Azərbaycan ordusunun itkilərinə görə məsuliyyəti öz üzərinə götürüb.

Azərbycanın buna münasibəti özünü çox gözlətməyib. İlk növbədə bir neçə dəqiqə sonra XİN bəyanat yayaraq bildirdi ki, nazirlərin görüşündən əvvəl bu kimi fəaliyyətlər gərginliyi artıracaq. Vəziyyətdəki yeganə yenilik rəsmi İrəvanın ictimai şəkildə davranış tərzidir. Keçmişdə də cavab tədbirlərinin görülməsinə dair vədlər və təhdidlər olsa da, heç zaman faktiki olaraq məsuliyyətin, həm də ictimai şəkildə öz üzərinə götürülməsi halı olmayıb. Ölkənin baş naziri gərginliyin azaldılmasına ümid etdiyini açıqlayır. Bundan 3 gün sonra İrəvan rəqibin itkilərini rəsmi olaraq öz üzərinə götürür. Belə bir vəziyyətdə baş verən faktı necə şərh etmək olar? İrəvan faktiki olaraq müharibə elan edir, baş verənlərin başqa bir izahı yoxdur. Yaxud Paşinyan ordunun ona tabe olmaqdan boyun qaçırdığına dair açıqlama verməyə məcburdur". Portal daha sonra yazır ki, hadisələrin bu səpkidə inkişafı Vyana və Sankt-Peterburq görüşlərinin nəticələrinin də arxa plana keçməsinə zəmin yaradır və bundan Rusiya da ciddi narahatdır: "Rusiya səfiri Sergey Kopırkin İrəvanda mətbuat konfransında bəyan edib: "Məncə, Vyana və Sankt-Peterburq gündəlikləri tənzimləmə prosesində aktiv müzakirə edilir". Səfir, əlbəttə, onu da bildirib ki, İrəvanda səfirdir və prosesin detalları haqqında məlumatlandırılmayıb. Adətən, belə cavabı Fransa və ABŞ-ın, həmçinin ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələrinin səfirləri də verir. Lakin diqqətçəkəndir ki, məlumatlandırılmamasına baxmayaraq, diplomat Vyana və Sankt-Peterburq gündəliklərinin müzakirə edildiyini bəyan edir. Səfirin bu bəyanatı son günlərdə cəbhədə vəziyyətin kəskinləşməsinə işarədir. Bunun ardınca məhz İrəvanın sərt cavabı - erməni əsgərinin öldürülməsinə görə Azərbaycandan intiqam alınması və bu tapşırığın icraçılarının yüksək mükafata təqdim edilməsi gəlib. Azərbaycan da bəyanatla çıxış edib ki, erməni tərəfi danışıqlar prosesini pozmaq istəyir. İndi danışıqlar prosesi pozulsa, bunun müharibə ilə əvəzlənməsi qaçılmazdır. Cəbhə xəttində genişmiqyaslı hərbi əməliyyatların başlanması təhlükəsi artır. Özü də bu dəfə vəziyyət elə gətirib ki, Azərbaycan bütün məsuliyyəti erməni tərəfinin üzərinə qoyacaq".

Ekspertlər hesab edir ki, bu dəfə savaş başlanacağı təqdirdə onu kimsə dayandıra bilməyəcək və bu, Azərbaycanın qələbəsindək davam edəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafı Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son bir ayda Oman körfəzində baş verənlər indi bütün dünyada ciddi narahatlıqla izlənir. Ən azı o baxımdan ki, baş verənlər barəsində illərdir söhbət gedən ABŞ-İran savaşının başlanma ehtimalını reallığa çevirmək üzrədir. Artıq baş verənlərdən sonra ABŞ İran ətrafına əlavə hərbi qüvvələr göndərməyə başlayıb.**

# Tankerlər üzərindən İrana qarşı başladılan yeni dünya savaşı...

Xatırladaq ki, Oman körfəzində neft tankerləri ətrafında qalmaqallı vəziyyət ötən aydın başlanıb. Belə ki, mayın 12-də Oman körfəzindəki Birləşmiş Ərəb Əmirliklərinin Fuceyra limanı rayonunda neft tankerlərinə diversiya hücumları həyata keçirilib. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Norveçə aid dörd ticarət gəmisi hücuma məruz qalıb. Fuceyra terminalı Hörmüz körfəzinin bilavasitə yaxınlığında yerləşən mühüm neftdoldurma məntəqəsidir və dünyanın ən iri dəniz nəqliyyat şəbəkələrindən birində - eyniadlı limanda yerləşir. Həmin vaxt bu hücumu İrana bağlı qüvvələrin həyata keçirdiyinə dair məlumatlar yayıldı. Lakin rəsmi Tehran baş verənlərdən yaxasını kənara çəkib və Fuceyra limanında baş verənləri "vandalizm aktı" adlandırıb: "Oman körfəzində bir neçə gəmi ilə bağlı baş verənlər təəssüf və narahatlıq yaradır, eyni zamanda bizim üçün əlverişsiz vəziyyətə səbəb olur. Biz həmin insidentlərin araşdırılmasına çağırırıq".

Bu insident tam araşdırılıb başa çatmamış Oman körfəzində növbəti qalmaqallı olay yaşanıb. İyunun 13-də yenə Birləşmiş Ərəb Əmirliklərinin "Ruveys" limanından Tayvana doğru yola çıxan Norveçin "Frontline" şirkətinə aid "Front Altair" və Panama bayraqlı "Kokuka Courageous" adlı tankerlərdə partlayış baş verib. Hücumlar haqqında ABŞ-dan gələn açıqlamada yenə İran ittiham olunur. Dövlət Departamentinin rəhbəri Mayk Pompeo hücumların arxasında İranın dayandığını qeyd edir: "ABŞ hökuməti hesab edir ki, Oman Körfəzindəki budəfəki hücumlara görə İran İslam Respublikası məsuliyyət daşıyır". Bu ittihamlar fonunda ABŞ Mərkəzi Komandanlığı Oman körfəzindəki tankerlərin partladılmasında İranın iştirak etməsinə dair video paylaşıb. Bütün bunların ardınca ABŞ Mərkəzi Qüvvələr Komandanlığı Oman körfəzinə döyüş gəmiləri göndərməyə başlayıb. Bildirilir ki, Omanda neft tankerlərinə qarşı təşkil olunan hücuma görə bölgəyə "USS Mason" döyüş gəmisi göndəriləcək. Həmçinin qeyd olunub ki, ABŞ donanmasına aid "USS Bainbridge" tankerlərdən birinin yanındadır və növbəti hücum cəhdinə cavab verməyə hazırdır. Mərkəzi Qüvvələr Komandanlığının mətbuat katibi Örl Braun bu xüsusda bildirib: "USS Mason" hadisə yerinə yardım üçün gedib. ABŞ və bölgədəki ortaqlarımız özümüzü və maraqlarımızı qorumaq üçün bütün lazımi tədbirləri görəcək. Hücumlar beynəlxalq səyahət və ticarət azadlığını açıq-aşkar təhdid edir".




İranın Xarici İşlər Nazirliyinin başçısı Məhəmməd Cavad Zərif isə qeyd edir ki, Oman körfəzində neft tankerlərinə hücumlarda iştirakla bağlı ABŞ-ın ittihamları əsassızdır: "ABŞ-ın hər hansı fakt və vasitəli sübutlarsız dərhal İrana qarşı ittihamlar irəli sürmək cəhdi yalnız göstərir ki, "B komandası" (İran Ağ Evin milli təhlükəsizlik üzrə məsləhətçisi Con Bolton, İsrailin baş naziri Benyamin Netanyahu, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman və Əbu-Dabinin vəliəhdi şahzadəsi Məhəmməd bin Zeydi "B komandası" adlandırır. Tehranın fikrincə, ABŞ-ın İrana qarşı düşməncəsinə hərəkətlərini bu dördlük müəyyən edir) "B planı"na keçir: Yaponiyanın baş naziri Sindzo Abenin həyata keçirdiyi təşəbbüslər də daxil olmaqla, diplomatiyanı sabotaj etmək və İrana qarşı iqtisadi terrorizmi gizlətmək. Mən məhz bir neçə ay əvvəl belə ssenari haqqında xəbərdarlıq edirdim: mən gələcəyi görən deyiləm, lakin anlayıram ki, "B komandası" nəyi rəhbər tutur". İranın BMT yanında Daimi Nümayəndəliyi də Oman körfəzində neft tankerlərinə hücumlarda iştirakla bağlı ABŞ-ın ittihamlarını qəti surətdə rədd edib. Bu xüsusda yayılan bəyanatda bildirilir: "İran iyunun 13-də baş vermiş neft tankerləri hadisələri ilə əlaqədar ABŞ-ın əsassız ittihamlarını qəti surətdə rədd edir və onları surətdə pisləyir".

İndilikdə hesab edilir ki, tərəflərin ittihamlarına baxmayaraq, baş verənlər bölgədə fəal müharibəyə doğru aparır. Rusiyanın "vzqlyad.ru" portalı bu xüsusda yazır: "Oman körfəzində iki tanker birdən təxribat hücumuna məruz qalıb. İlkin məlumata görə, hər iki gəmiyə torpedolarla hücum edilib. Hələlik heç kim təxribata görə məsuliyyəti öz üzərinə götürməyib, amma bu, son zamanlar ilk belə hadisə deyil. Rusiya XİN başçısının müavini Sergey Ryabkov deyib ki, Oman körfəzindəki hadisə bölgədəki son dərəcə kəskin durumu əks etdirir: "Bunun hansısa aralıq bir epizod olduğundan danışmaq düzgün olmazdı. Bu, bölgədəki ümumi kəskin durumun əksidir". Ryabkov qeyd edib ki, Moskva hadisə haqda tələsik nəticələrə qarşıdır və durumdan sakitcə baş çıxartmağa çağırır. Nazir müavini deyib: "İran ətrafında durumu normallaşdırmaq üzrə tədbirlər gərəkdir, baş verənləri sakitcə, ön rəyçilik olmadan araşdırmaq, əlavə benzin səpə biləcək tələsik nəticələr çıxarmamaq lazımdır". Ekspert mühitində istisna etmirlər ki, bölgədəki durum sabitləşməzsə və tankerlər yeni hücumlar təhlükəsi altında olacaqsa, hadisələr bütün dünya iqtisadiyyatına təsir edə bilər.

Rusiya Sosial Analiz və Proqnozlaşdırma İnstitutunun direktor müavini Vladimir Nazarovun fikrincə, baş verənlər Rusiya və qalan neft hasilatçısı ölkələr üçün "qara qızıl"ın qiymətinin artımı planında müsbət təsiri ola bilər. Nazarov deyib: "Neft qiymətləri yüksəlib. Aşağı olmasındansa, yüksək qiymətlər daha yaxşıdır, bu yaxşı cəhətdir, amma nəhəng deyil, aydındır ki, iqtisadi artım tempi bundan dəyişilməyəcək". Xarici və müdafiə siyasəti üzrə Şuranın rəyasət heyətinin üzvü Fyodor Lukyanov öz növbəsində əmindir ki, baş verənlər İranla münaqişəni qızışdıracaq. O yada salır ki, Vaşinqton 12 may insidentindən sonra sübut olmadan tankerlərə hücumda Tehranın əli olduğunu bildirib: "Bu ruhda davam edərsə, ola bilsin, bundan konkret siyasi hədəflər üçün istifadə olunur". Onun fikrincə, insidentlər İranı qorxutmağa yönəldilə bilər: "Ola bilsin, ABŞ hesablayır ki, güclü iqtisadi və psixoloji basqı İranı danışıqlara, güzəştlərə getməyə vadar edər".Beynəlxalq məsələlər üzrə Rusiya Şurasının baş direktoru Andrey Kortunov hesab edir ki, Fars körfəzindən neft nəqlinə təhlükə çoxdan güclənir. Onun sözlərinə görə, bu, bölgədə hərbi gəmilərin yüksək sıxlığı, inam tədbirlərinin yoxluğu və ABŞ və İran tərəfdən sərt bəyanatlar üzündən baş verir. Təxribatların arxasında kimin durduğu versiyasına gəlincə, o göstərib ki, elə həmin İranda "fitnəkarlıq təşkil edə biləsi güclər var. Bu, İŞİD və "əl-Qaidə"nin anklavlarına birmənalı şəkildə əlverişli olardı, çünki hadisələr diqqəti terrorizmlə mübarizədən yayındıra bilər. Hər şey sünni-şiə qarşıdurması müstəvisinə keçə bilərdi".

Politoloq istisna etmir ki, yayılma ABŞ-a da əl verir, amma amerikalılar "İranla özləri vuruşmaq istəmir", Tehrana qarşı hərbi əməliyyata başlaya biləcək İsrailə, ya da Səudiyyə Ərəbistanına isə dəstək verərlər. Kortunov habelə hesab edir ki, durum hansısa dərəcədə Rusiyaya əlverişli olmalıdır. Politoloq izah edir: "Gəmiçilik üçün risqlər saxlanarsa, neft qiymətlərinin artımını törədəcək… Eyni zamanda qiymət artımı Amerika nefti və qazı üçün güclü dopinqi də bildirir - qiymətlər nə qədər yüksəkdirsə, yatırımlar da bir o qədər yüksəkdir".

***Tahir TAĞIYEV***

# Elmi adların verilmə prosedurlarında Prezidentin sadələşdirmə sərəncamı necə qarşılandı...

**Azərbaycanda elmin inkişafı, elm adamlarının elmə bağlanması, bu sahədə nəticələr əldə etməsi üçün dövlət tərəfindən ciddi dəstək göstərilir. Ümumiyyətlə, ölkəmizdə həqiqi elmlə məşğul olan insanların sayı kütləvi olmasa da, bu sahədə ciddi fəaliyyətləri ilə diqqəti çəkənlər də yox deyil. Lakin bir çox hallarda həqiqi elmlə məşğul olan adamların elmi iş müdafiə etməsi, elmi dərəcə alması elə də asan başa gəlmirdi.**

***İlqar Orucov:*** *"Artıq hüquqi baza da yenilənib və ümid edirəm ki, ölkə başçısının bu istiqamətdə imzaladığı sənədlərin məsuliyyətini dərk edən məsul şəxslər işin müsbət tərəfə inkişafına nail olacaqlar"*



Bir tədqiqatçının elmi iş müdafiə etməsi və elmi dərəcə alması bəzən illər çəkirdi. Bəzən insanlar elmi iş müdafiə etsələr də, elmi dərəcə, ad alması müəyyən qurumların süründürməçiliyi ucbatından çətinliklər hesabına başa gəlirdi.

Artıq bu sahədə mövcud çətinliklərin, maneələrin aradan qaldırılması istiqamətində dövlət tərəfindən konkret iradə ortaya qoyulub. Məlum olduğu kimi, bu günlərdə Prezident İlham Əliyevin elmi adların və dərəcələrin verilməsinə dair təsdiq etdiyi əsasnamələrlə Azərbaycanda elmi adların və dərəcələrin verilməsi prosedurları sadələşdirilib, artıq maneələr aradan qaldırılıb.

Elmi adların və dərəcələrin verilməsi qaydalarının sadələşdirilməsinin əhəmiyyəti nə olacaq? Bu proses təsadüfi şəxslərin elmi ad və dərəcələr almasına şərait yarada bilərmi?

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov mövzu ilə bağlı "Bakı-Xəbər"ə bildirdi ki, müvafiq qurumlar bu məsələ ilə bağlı sənədi daha tez hazırlayıb təqdim etməliydilər. İ.Orucovun sözlərinə görə, elmi adların verilməsini həyata keçirən Ali Attestasiya Komissiyasının Sovet dövründən qalan sistemlə fəaliyyət göstərməsi özünü zərərli tendensiyalarla büruzə verirdi: "Elmi adların verilməsində olan problemlərin nədən ibarət olduğunu zaman-zaman dilə gətirirdik. Atılan addımı bu istiqamətdə bir dönüş hesab edirəm. Bu sahədə çox ciddi problemlər var. Plagiatlıq halları, təkrar mövzuların işlənməsi, müdafiə şuralarında bürokratik əngəllər, iddiaçılardan lazımsız sənədlərin tələb olunması, illərlə diplomların təsdiq edilməməsi, süründürməçilik, elmə aid olmayan adamların elmə gəlməsi və s. kimi neqativ hallar, əslində, hamımıza bəlli məsələlərdir. Ölkə Prezidenti İlham Əliyev tərəfindən həm elmlə, bütövlükdə, elmi kadrların hazırlanması ilə bağlı görülən işlərlə Ali Attestasiya Komissiyası ayaqlaşa bilmir. Onun nəticəsidir ki, elmi kadr hazırlığı ilə bağlı bu qədər problemlər ortaya çıxır. Hesab edirəm ki, yeni sənədin qəbul olunması bu istiqamətdə olan problemlərin aradan qaldırılmasına və sözün yaxşı mənasında, Ali Attestasiya Komissiyasının fəaliyyətində bir dönüşə gətirib çıxaracaq".

### "Bunun fərqində olmaq, məsuliyyətin dərəcəsini hiss etmək lazımdır"

Bu sahədə təəssüf ki, bir sıra problemlərin olduğunu deyən İ.Orucov hesab edir ki, Ali Attestasiya Komissiyasının işində xeyli problem ortaya çıxıb. "Hətta Ali Attestasiya Komissiyası kimi mötəbər qurumda işləyən kadrlar o qədər kobud və qaba adamlar idilər ki, sanki dövlətin bu idarəsi onların dədələrinin şəxsi müəssisəsi idi. Bura müraciət edənlər ölkənin, cəmiyyətin elitar təbəqəsidir, alim olmağa iddia edənlər, alimlərdir. Bu cür müəssisələrin fəaliyyəti, əslində, nümunə, orada çalışanların vicdanı təmiz, şəxsiyyəti kristal olmalıdır. Nəzərə alsaq ki, status baxımından da bu qurum xeyli ali bir təşkilatdır, adının əvvəlində ölkənin birinci şəxsinin yanında yazılması təsadüfi deyil. Bunun fərqində olmaq, məsuliyyətin dərəcəsini hiss etmək lazımdır. Bu gün məmurların böyük əksəriyyət adlarının qarşısında "fəlsəfə doktoru" yazılmasının arzusundadır və bununla bağlı çox ciddi problemlər var. Yaxud Milli Məclis üzvlərinin böyük əksəriyyəti deputat seçildikdən sonra müdafiə edir, alimlik dərəcəsi və elmi ad alır. Bu insanların faktiki zamanı yoxdur, onsuz da üzərilərinə düşən yük də kifayət qədərdir. Əvvəldən elmdə olan insanlar var ki, onlar siyasi və ictimai fəaliyyətə elmi fəaliyyətdən sonra başlayıblar.

Əlbəttə, onların elmi ad almaları haradasa başadüşüləndir. Amma məmur və ya deputat olan kimi alim olmaq nə deməkdir? İqtisadiyyat İnstitutunun tanınmış və həqiqəti deyən bir direktoru var idi. Mən indi ad çəkmək istəmirəm.

Həmişə deyirdi ki, biznesmenlər, bankirlər və məmurların əlindən bezmişəm. Qapıdan qovursan, pəncərədən girirlər və hamısı da alim olmaq istəyir. Sual olunur: onlar nə vaxt elmə vaxt ayırırlar, necə müdafiə edirlər? Acınacaqlı hal odur ki, bu kimi adamlar bütün ailə üzvlərini də "alim" edirlər, məşhur filmdə deyildiyi kimi, adlarını elmə calaq edirlər. Əslində, bu hal elmə böyük bir zərbədir, bu, elmi ələ salmaqdır. Ali Attestasiya Komissiyası bu cür hallara qarşı ciddi mübarizə aparmalı idi. Elmi kadrların vəziyyətinin bu səviyyəyə düşməsi ciddi problemdir və bu prosesdə AAK-ın günahı danılmazdır. Dünyada bu gün elm və texnologiyalarsız inkişaf mümkün deyil. Ölkəmizin ali rəhbəri hər zaman çıxışlarında ifadə edir ki, inkişaf etmiş ölkələrin firavan həyatını təbii resurslar deyil, insan kapitalı və yeni texnologiyalar şərtləndirir. Yeni texnologiyaları yaradan elmi kadrlardır. Deməli, cənab Prezident elm və elmi-texniki siyasəti həyata keçirən icraçı orqanlara mesaj verir, çağırış edir, ölkəmizin bilik iqtisadiyyatına malik dövlətlərdən olmasını arzulayır. Deməli, elmin inkişafına, elmi kadrların hazırlanmasına yönəlmiş siyasi iradə mövcuddur. Yetər ki, aidiyyəti məsul şəxslər bu mesajların məsuliyyətini dərk edərək üzərilərinə düşən işləri yerinə yetirsinlər. Amma reallıq onu sübut edir ki, Azərbaycanda bu sahədə ciddi geriliklər var. Bu sahədə Ali Attestasiya Komissiyasının görəcəyi işlər çoxdur. Prinsipiallıq mütləq gözlənilməlidir, Komissiyada tapşırıqlar və neqativ hallar olmamalıdır. Bir neçə il öncə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "İctimai və humanitar elmlər: zamanın kontekstində" adlı məqalə ilə konkret nöqsanları ortaya qoydu. Fikirləşirdik ki, dönüş olacaq. Amma oldumu? Olmadı və yeni-yeni nöqsanlar ortaya çıxdı. İndi AAK-ın rəhbərliyi də yenilənib və arzu edirəm yeni rəhbərlik ölkəmizin, xalqımızın gələcəyi naminə problemləri həll etsin".

*"Fikrimcə, bizim universitetlər hələ proseduru reallaşdırmaq səviyyəsində deyillər və bu fəaliyyəti universitetlərə həvalə etsək, daha ciddi problemlər ortaya çıxacaq"*

### "AAK-ın olması, bu strukturun saxlanması hələ ki, lazımdır"

İ.Orucov qeyd etdi ki, dövlət elmin inkişafı üçün kifayət qədər iş görür, amma elmə rəhbərlik edən şəxslər, məsul adamlar da öz üzərinə düşən vəzifənin məsuliyyətini dərk etməlidirlər: "Elmimiz cənab Prezidentin həyata keçirdiyi islahatlara uyğun formada inkişaf etsin, görüntü xarakterli olmasın, elmi kadrlarımız bu islahatlara təkan verə bilsinlər. Artıq hüquqi baza da yenilənib və ümid edirəm ki, ölkə başçısının bu istiqamətdə imzaladığı sənədlərin məsuliyyətini dərk edən məsul şəxslər işin müsbət tərəfə inkişafına nail olacaq, son dövrlərdə Ali Attestasiya Komissiyası ətrafında formalaşmış və bu quruma yaraşmayan söz-söhbətin aradan qaldırılmasına nail olacaqlar. Bir çox ekspertlərdən fərqli olaraq, mən o fikirdəyəm ki, bizim ölkəmizdə AAK-ın olması, bu strukturun saxlanması hələ ki, lazımdır. Baxmayaraq ki, qurum SSRİ-dən miras qalıb, keçmiş sovet respublikalarından olan müstəqil dövlətlər istisna olmaqla, elmtutumlu ölkələrdə bu tip qurumlar yoxdur və elmi dərəcələrin verilməsi prosedurunu universitetlər həyata keçirirlər. Fikrimcə, bizim universitetlər hələ proseduru reallaşdırmaq səviyyəsində deyillər və bu fəaliyyəti universitetlərə həvalə etsək, daha ciddi problemlər ortaya çıxacaq.

**Ona görə də fikirləşirəm ki, AAK-ın saxlanması, lakin, onun işinin təkmilləşdirilməsi lazımdır. Hesab edirəm cənab Prezidentin "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərmanı da buna hədəflənib" - deyə İ.Orucov bildirdi.**

***İradə SARIYEVA***

**Ümumi təhsilin keyfiyyətini yüksəltmək üçün orta məktəblərdə təmayül sinifləri yaradılıb. Təmayül siniflərini bitirən məzunlar ali məktəblərə qəbulda daha yüksək nəticələr nümayiş etdirirlər. Bunu "Azərbaycan" qəzetində dərc olunan məqaləsində təhsil naziri Ceyhun Bayramov deyib.**

# Təhsil naziri təmayüllü məktəblərlə bağlı maraqlı fakt açdı...



*"Təmayül siniflərinin yaradılması şagirdlərin dərsə davamiyyətinə də müsbət təsir edir"*

## ***Kamran Əsədov:*** *"Bu gün təmayül tipli sinif və məktəbləri bitirənlər daha yüksək nəticə ilə ali məktəbə qəbul olunur"*

O qeyd edib ki, ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək kompetensiyalara yiyələnmək imkanı yaratmaq məqsədilə tam orta təhsil səviyyəsində təmayülləşmənin əhatə dairəsi genişləndirilib, 2140 sinifdə 47930 şagird təmayüllər üzrə təhsilə cəlb edilib ki, bu da X-XI siniflərdə təhsil alan şagirdlərin təxminən 30 faizini təşkil edib: "Təmayül siniflər üçün tədris planları, proqramları hazırlanıb və tətbiq edilib. İlkin təhlillər göstərir ki, təmayül siniflərini bitirən məzunlar ali məktəblərə qəbulda daha yüksək nəticələr nümayiş etdirir və akademik nailiyyətləri ilə fərqlənirlər. Hər bir şagirdə təmayül istiqamətinə uyğun peşəkar bacarıqların aşılanması məqsədilə "Ümumi təhsil haqqında" Qanunda təmayül siniflərində şagird sayı əvvəlki 20 nəfərdən 15 nəfərə endirilib. Qarşıda ölkə üzrə təmayülləşmənin tətbiqi vəziyyətinin təhlili, əhatə dairəsinin daha da genişləndirilməsi, təmayül sinifləri üçün yeni proqram və dərsliklərin hazırlanması, peşəkar və səriştəli müəllimlərin cəlb edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi vəzifəsi dayanıb".

Təmayül tipli sinif və məktəblərdə təhsil alan şagirdlərin yüksək nəticə göstərərək ali məktəbə qəbul olunmasını ekspertlər də təsdiqləyirlər.

**Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün təmayül tipli sinifləri bitirənlər daha yüksək nəticə ilə ali məktəbə qəbul olunur. Bu danılmaz faktdır:** "Təhsil haqqında" Qanuna edilən əlavə və dəyişikliklərdən sonra ali təhsil müəssisələrinə hazırlaşan abituriyentlərə kömək məqsədilə 4 istiqamət üzrə təmayül sinifləri yaradılıb. Belə ki, təbiət, humanitar, texniki və riyaziyyat fənləri üzrə təmayül sinifləri yaradıldı. Təmayül siniflərinin yaradılması olduqca müsbət haldır. Məsələn, humanitar sahəyə hazırlaşan məktəbli yalnız öz ixtisası üzrə fənlər oxuyur. Nəticədə həmin abituriyentin qəbul imtahanında göstərdiyi nəticə yüksək olur".

Həmsöhbətimiz onu da vurğuladı ki, təmayül siniflərinin yaradılması şagirdlərin dərsə davamiyyətinə də müsbət təsir edir: "Danılmaz faktdır ki, riyaziyyat təmayülündə təhsil alanlar digər fənlər üzrə keçirilən dərslərdə iştirak etməkdən yayınırdılar. Təbii ki, bu hal onların davamiyyətinə təsir edirdi. Ancaq gün ərzində onların özünə lazım olan fənlər tədris olunduğu üçün, məktəblilər aktiv şəkildə dərsdə iştirak edirlər".

***Günel CƏLİLOVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIYEV MÜBARİZ MƏMMƏD oğlu**



24 avqust 1971-ci ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Xaçmaz rayonunun Yataqoba kəndində yaşamışdır. Xaçmaz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağıyev Mübariz Məmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 24 sentyabr 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağıyev Mübariz Məmməd oğlu 24 sentyabr 1992-ci il tarixində Ağdam rayonunun Abdal Gülablı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağıyev Mübariz Məmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIYEV YAŞAR HƏMDULLA oğlu**

30 avqust 1975-ci ildə Azərbaycan Respublikası Quba rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Quba rayonunun Yenikənd kəndində yaşamışdır. Quba RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağıyev Yaşar Həmdulla oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı



Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 aprel 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağıyev Yaşar Həmdulla oğlu 26 aprel 1994-cü il tarixində Tərtər rayonunun Seysulan kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağıyev Yaşar Həmdulla oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXIŞOV ARİF BAXIŞ oğlu**



16 dekabr 1969-cu ildə Azərbaycan Respublikasının İsmayıllı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İsmayıllı rayonunun Kürdmaşı kəndində yaşamışdır. İsmayıllı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxışov Arif Baxış oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 24 dekabr 1992-ci ildə Zəngilan rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxışov Arif Baxış oğlu 24 dekabr 1992-ci il tarixində Zəngilan rayonunun Vənəndli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Baxışov Arif Baxış oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXIŞOV XƏLİL SALMAN oğlu**

1 iyul 1965-ci ildə Azərbaycan Respublikası Ağdaş rayonunun Ərəbocaq kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Ağdaş rayonunda və Bakı şəhərinin Nərimanov rayonunda yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Baxışov Xəlil Salman oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən



döyüş əməliyyatları zamanı 28 sentyabr 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür. Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxışov Xəlil Salman oğlu 28 sentyabr 1992-ci il tarixində Ağdam rayonunun Fərrux yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Baxışov Xəlil Salman oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# "Mango" geyim mağazası müştəriyə bir qiymət göstərib, başqa qiymətə satıb...

**Geyim mağazalarının əksəriyyəti alıcı qəbul etmək üçün süni endirim kampaniyalarından istifadə edir. "Mango" geyim mağazasından geyim alan xanım iddia edir ki, etiketin üstünə 49.9 yazıldığı halda, kassada ondan 79 manat tələb ediblər.**

### *”...müştəridən üzr istənilib”*

Bu məlumatı Hüsniyə Cavadzadə adlı istifadəçi sosial şəbəkədə "Mango" geyim markasından şikayətində yazıb. Bildirib ki, mağazalar şəbəkəsində 50%-dən endirim olduğu üçün alış-verişə gedib. Bu zaman hər birinin üzərində qiyməti 49.99 yazılmış şalvar və köynək seçib. Lakin kassaya yaxınlaşdığı zaman ona qiymətlərin fərqli olduğu bildirilib: "Köynək 85 AZN-dən 79 AZN-ə düşüb, şalvar isə 59 AZN-də qalıb. Təsəvvür edin ki, belə qiymət səhvi olan onlarla paltar var. Mənim də 2 saat vaxtım boşuna getdi".

Şikayətçi sonda mağazanın məsul şəxsinə yaxınlaşıb və ona qiymətlərin həqiqətən səhv vurulduğunu bildiriblər.

Məsələnin təfərrüatını öyrənmək üçün "Mango" geyim mağazası ilə əlaqə saxladıq. Mağazanın meneceri Səidə Əhmədova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, geyimin əsl qiyməti 79 manat idi: "Sadəcə, etiketin üzərinə səhvən 49 AZN yazılıb.

Bu, mexaniki səhvdir. Bu səhvi mağazada olan şəxslər xanıma izah etdilər və ondan üzr də istədilər.

Lakin xanım sakitləşməyib texniki səhvi öz səhfəsində qlobal

### *”Mango” geyim mağazası - Səidə Əhmədova:*
### *”Etiketin üzərinə səhvən 49 manat yazılıb”*




problem kimi yazaraq təqdim edib. Məlumdur ki, bu gün mağazalarda kassada müştəriyə qiyməti satıcı və ya kassada əyləşən şəxs demir.

**Geyim aparata yaxınlaşdırılır və həmin libasın qiyməti neçədirsə, o da müştəriyə deyilir. Aparat səhv edə bilməz. Sadəcə, malın üzərində olan etiketə qiymət təsadüfən səhv yazılıb. Alıcı da elə bilib ki, biz müştəriləri aldadırıq. Bu belə deyil".**

***Günel CƏLİLOVA***

# Sabunçu dairəsində həmin həmindir - yeni tikintilər də tıxacları aradan qaldırmadı...

**Axşam saatlarında Sabunçu, Zabrat, Maştağa, bu istiqamətdə olan digər kənd və qəsəbələr istiqamətində nəqliyyatın hərəkətində tıxaclar müşahidə edilir. Məsələ ondadır ki, Zabrat şosesinin Heydər Əliyev prospekti ilə kəsişən hissəsində (Sabunçu yol qovşağı) yerüstü piyada keçidi yaradılsa da, keçidin yaxınlığında yerləşən dayanacaq məntəqəsinin yeri qabağa çəkilsə də, axşam saatlarında tıxac yaranır.**



### *Azər Allahverənov: ”Çıxış yolu reydlərdən və videomüşahidə kameralarının quraşdırılmasından keçir”*

Əvvəl tıxacın yaranmasına səbəb Sabunçu yol qovşağında piyada keçidin olmaması idi. Düz bir il əvvəl sözügedən ərazidə yerüstü piyada keçid istifadəyə verildi. O zaman həmin yoldan istifadə edən sürücü və sərnişinlər sevindilər ki, daha pik saatlarda ərazidə tıxac olmayacaq.

Ancaq sözügedən keçid qismən tıxacın azalmasına səbəb oldu. Çünki Sabunçu-Zabrat yolunun xüsusilə yolüstü piyada keçidinin yerləşdiyi hissəsində taksilərin avtobus dayanacaqlarında saxlaması, avtobusların isə yolun ikinci və üçüncü zolaqlarında saxlaması pik saatlarında tıxacların yaranmasına səbəb olur. Məlum oldu ki, tıxacın yaranma səbəbi dayanacağın yerüstü piyada keçidinə yaxın olması ilə bağlıdır. Belə ki, avtobus və taksilərin dayanacağa yanaşması yoldakı nəqliyyat vasitələrinin hərəkət intensivliyini aşağı salırdı. Bu səbəbdən dayanacaq piyada keçidindən təxminən 300 metr uzaqlaşdırıldı. Sabunçu bazarı istiqamətində hərəkət edən avtomobillər dayanacağa çatmadan rahat sağa dönürlər. Bütün bunlar həqiqətən də bir müddət yaranan tıxacın aradan qalxmasına səbəb oldu. Ancaq son aylar yenə də həmin istiqamətdə, xüsusən axşama doğru olan vaxtlarda tıxac yaranır. Bunun səbəbi onunla bağlıdır ki, taksi fəaliyyəti ilə məşğul olan şəxslər dayanacağa yaxın yolboyu avtomobilləri saxlayırlar. Bir sıra hallarda avtobusların saxlama yerlərində taksini saxlayırlar. Nəticədə avtobus sürücüləri məcbur olur yolun ikinci zolağında maşını saxlasınlar. Bu da axşam saatlarında ciddi tıxacın yaranmasına səbəb olur. Onu da qeyd edək ki, bağ mövsümü ilə əlaqədar həmin istiqamətdə

### *”...o zaman Sabunçu yol qovşağında tıxac problemi öz həllini tapacaq”*

avtomobillərin sayı xeyli artıb. Xüsusən cümə günü bu özünü daha qabarıq göstərir.

Məsələ ilə əlaqədar Bakı Nəqliyyat Agentliyi ilə əlaqə saxlamağa çalışsaq da, bu alınmadı.

**Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında çıxış yolunun yol qovşağına nəzarətin artırılmasından keçdiyini bildirdi:** "Əvvəllər orada Yol Patrul Xidmətinin əməkdaşları tez-tez reydlər keçirirdilər. İnsafən, bu reydlər tıxacların qarşısını alırdı. Hesab edirəm ki, günün pik saatlarında sözügedən reydlər yenidən bərpa edilməlidir. Digər tərəfdən, avtobus rəhbərliyi buna görə məsuliyyət daşımalıdır. Çünki bir sıra hallarda avtobus sürücülərinin özü qaydaları pozurlar. Ona görə də avtobuslar üzərində nəzarət çox sərt şəkildə qoyulmalıdır. Başqa bir tərəfdən, avtobusun dayanacaqdan kənarda saxlanma səbəbləri araşdırılmalıdır. Taksi avtobusun yerini zəbt edibsə, o zaman taksi sürücüləri cərimələnməlidirlər. Ona görə də, birincisi, DYP həmin ərazidə reydləri gücləndirməlidir. İkincisi, Baki Nəqliyyat Agentliyi həmin ərazidə videomüşahidə kameraları quraşdırmalıdır. Bu zaman çox rahat şəkildə qayda pozuntularını aşkarlamaq olar. Ondan sonra qaydanı pozanları cərimələmək və onlara elektron protokollar göndərmək lazımdır. İnanın, taksi və avtobus sürücüləri biləndə ki, videomüşahidə kameraları var və buna görə cərimələnəcəklər, o zaman qaydanı pozmazlar.

**O üzdən, çıxış yolu reydlərdən və videomüşahidə kameralarının quraşdırılmasından keçir. Belə olarsa, o zaman Sabunçu yol qovşağında tıxac problem öz həllini tapacaq".**

***Vidadi ORDAHALLI***

# Artıq piyin götürülməsi əməliyyatında daha bir qadın ölümü...

**"Gözəllik qurban tələb edir" düşüncəsi ilə bəzi qadınlar öz həyatlarını görünüş xatirinə risqə atırlar. Söhbət bəzən estetik əməliyyatların ölümlə nəticələnməsindən gedir. Artıq çəki problemi yaşayan xanımlar bəzən bu məsələni əməliyyat yolu ilə həll etməyə çalışırlar. Hazırda bir çox gənc qız və qadınların üz tutduğu qarın piylərinin liposaksiyası əməliyyatı ölüm təhlükəsi yüksək olan əməliyyatlardandır.**

Əgər əvvəllər şou-biznes nümayəndələri, sənətçilər estetik əməliyyatlara müraciət edirdilərsə, hazırda sadə insanlar, hətta az imkanlı şəxslər də buna maraq göstərir. İnsanlar keçirəcəyi estetik əməliyyatların onlara həyatı bahasına başa gələcəyini, ölüm risqini bilə-bilə, yenə də bu addımı atırlar. Heç də gizlin deyil ki, estetik cərrahiyyə inanılmaz dərəcədə inkişaf etsə belə, hər zaman təhlükəlidir. Çünki mütəxəssislər dəfələrlə bildirirlər ki, istənilən cərrahiyyə əməliyyatının ölüm risqi var. Belə ki, xəstədə hər hansı sistematik problem yoxdursa, ölüm risqi 10 min nəfərdən birində və ya ikisində özünü göstərə bilər. Xəstənin qan, ürək, diabet, revmatizm, damar kimi xəstəlikləri və ya uşaqlıqdan gələn bir anormallığı varsa, bu da təhlükə yarada bilər.

Məlumat üçün bildirək ki, dünyada ən çox müraciət edilən plastik əməliyyat "ritidektomiya", sifət və boyun dərisinin dartılması əməliyyatıdır. Bu əməliyyat növü ötən əsrin əvvəllərində Avropada yaranıb, lakin uzun müddət gizlin saxlanıb.

"Liposaksiya" - bel, yan, qarın, əl, boyun və digər hissələrdəki artıq piylər üçün nəzərdə tutulan əməliyyat növü də dünyada geniş yayılmağa başlayıb. Bu əməliyyat ilk dəfə 20 il əvvəl Fransada yaranıb.

Araşdırmalar zamanı məlum olub ki, ölkəmizdə ən çox müraciət edilən plastik əməliyyat "rinoplastik" burun əməliyyatıdır. Bununla yanaşı, son zamanlar "liposaksiya" əməliyyatı da geniş yayılıb.

Estetik əməliyyatlarla arıqlamaq, istədiyi bədən formasına sahib olmaq istəyi insanlar arasında geniş yayılıb. Bu üsulla qısa müddətdə qalıcı nəticə əldə etmək mümkün olduğu üçün, xüsusən qadınlar piylərini liposaksiya metodu, piy sovurma ilə kənarlaşdırmağa üstünlük verirlər.

Ancaq son vaxtlar təhlükəsiz kimi bilinən, təqdim olunan liposaksiya proseduru bir çoxlarının həyatına son verib.





***Bəxtiyar Qəhrəmanov:** "...bu problemlər köhnə model aparatlarla edilən əməliyyatlarda müşahidə edilir"*

***Adil Qeybulla:** "Bu cür ciddi əməliyyatı qeyri-peşəkar həkimə etibar etmək olmaz"*

Təkcə Azərbaycanda hələ mətbuata məlum faktlar il ərzində 4-5 nəfəri keçir.

Həkimlər bu əməliyyatın xəstənin həyatı üçün təhlükəsiz olduğunu bildirsələr də, fakt faktlığında qalır.

Bir neçə həftə öncə "Baku Medical Plaza"da liposaksiya əməliyyatı keçirən, özü də həkim-ginekoloq olan Sona Gürgün Vəliyeva gözəlliyin qurbanı oldu.

Növbəti xoşagəlməz hadisə Avrasiya Hospitalında baş verib. Azərbaycan Dövlət Tibb Universitetinin müəllimi, pediatr Sədaqət Şahsuvarova liposaksiya əməliyyatından 4 gün sonra həyatını itirib. Onun əməliyyatı plastik cərrah Vüqar Ələkbərov tərəfindən həyata keçirilib. Cərrah açıqlamasında pasiyentin ölümündə günahkar olmadığını bildirib.

Son zamanlar liposaksiya əməliyyatının qurbanlarının sayının nə səbəbdən artdığını öyrənmək məqsədilə plastik-estetik cərrah Bəxtiyar Qəhrəmanova müraciət etdik. Cərrah qeyd etdi ki, liposaksiya əməliyyatının həyata keçirildiyi cihazlar son illər çox təkmilləşib və uğurun yarısı da bu cihazlardan asılıdır: "Bu cihaz dəri altındakı piy toxumasını əridib, maye halına salaraq sovurub çıxarır. Həmin piy kütləsi yenidən işlənərək, bədənin müəyyən nahiyələrinə yeridilərək şəkillədirilir.

Prosedur zamanı yaranan piy və ağciyər emboliyası xəstənin həyatına son qoya bilər. Əslində, sadalanan bu problemlər köhnə model aparatlarla edilən əməliyyatlarda müşahidə edilir. Bu zaman aparat piy toxumasını zədələyir, qan dövranını pozur, piy parçası qan damarlarına düşərək tənəffüs yollarını tutur, xəstənin vəfat etməsinə gətirib çıxarır.

Lakin son model liposaksiya aparatları təhlükəsiz hesab edilir. Çünki bu aparatlar sensorlarla təchiz olunub. Əməliyyat zamanı aparatın ucu yalnız piy toxumasına toxunduqda işləyir. Damar, əzələ, sümük və digər toxumaya çatdıqda aparat sönür, yəni fəaliyyətini dayandırır. Bu isə əməliyyat zamanı yaranan bütün risqləri aradan qaldırır, həkimin səhv etməsinin də qarşısını alır. Son model liposaksiya aparatı ilə edilən əməliyyat zamanı ölüm risqi demək olar ki, sıfıra enir.

Məlumat üçün bildirim ki, xəstənin həyatı üçün təhükəsiz olan son nəsil liposaksiya aparatları Bakı şəhərində cəmi iki klinikada mövcuddur, eləcə də mən bu aparatla əməliyyat edirəm. Ola bilər, bir çox həkim xəstələri inandırmaq üçün qeyd etsin ki, son model məndədir. Amma yoxlamaq, dəqiqləşdirmək lazımdır.

Bu aparatla piylər çıxarılan nahiyədə dəri sallanmaları da müşahidə edilmir. Əməliyyat zamanı əridilərək toplanan piy yenidən işlənələrək, hazır hala gətirilib pasiyentin istəyinə uyğun olaraq bədəninin müxtəlif nahiyələrinə yeridilir.

Bədən şəkillədirmə zamanı ən çox qarın, qol və bud nahiyəsindən alınan piy sağrı, süd vəzi, hətta dodaq kimi hissələrə əlavə edilir. Beləliklə də pasiyentin öz piylərindən ona yeni forma verilir.

Prosedurdan sonra əməliyyat olunan pasiyent istədiyi bədən quruluşuna qovuşmaq üçün bir sıra korreksiyalar da etdirməlidir. Yalnız bundan sonra əldə edilən bədən forması bütün ömür boyu şəklini qoruyur".

B.Qəhrəmanov onu da vurğuladı ki, liposaksiya üçün hər hansı qadağa yoxdur. Yaş məhdudiyyəti qoyulmayıb, xəstəliklər də əks göstəriş deyil. Hətta şəkər xəstələrinə də olar. Bir sözlə, kimin ehtiyacı varsa, bu əməliyyatdan keçə bilər.

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, liposaksiya həyata keçirən həkim bu sahənin mütəxəssisi olmalıdır: "Bu cür ciddi əməliyyatı qeyri-peşəkar həkimə etibar etmək olmaz. Əməliyyat sırasında ölüm risqi bu proses üçün xarakterikdir. Liposaksiya əməliyyatında qorxulu məqamlardan biri tromb-embaliya risqidir. Bir də bəzən götürülən piyin miqdarı bədən çəkisi ilə uyğun gəlmir. Bu halda da əməliyyat ciddi fəsadla nəticələnə bilər. Əməliyyatdan əvvəl həmin şəxs həkim tərəfindən müayinə edilməlidir. Bədəndə hemoqlabinin və qanın səviyyəsi aşağıdırsa, həmçinin, qanda laxtalanma yüksəkdirsə, liposaksiya əməliyyatı həyata keçirmək olmaz".

***Günel CƏLİLOVA***

# Keçmiş ərləri şou müğənnilərinə xəyanət etdiyi üçün onlar boşanıb, yoxsa onları xəyanətlərinə görə boşayıblar?

**Boşanma bir sosial-psixoloji bəladır. Bu epidemiya bütün cəmiyyətlərə yayılıb və günü- gündən miqyası daha da genişlənir. Bizim cəmiyyətə elə də xas olmayan, ümumiyyətlə, milli mentalitetimizə yad olan boşanma aktlarının bu qədər genişlənməsində payı olanlar var. Onların kimlər olduğunu soruşmaq istəyirsinizsə deyim.**

Boşanma, xəyanət virusunu bizim cəmiyyətə, ailələrə yeridənlərdən biri şou-biznesçilərdir. Birdən deyərsiniz ki, boşanma fərdi məsələdir, insanların şəxsi işidir, bura şou-biznesçilərin nə dəxli var? Dəxli var, özü də çox. Onların yaşadıqları həyat tərzi ilə bağlı apardıqları təbliğat gənclərin əxlaqına, mənəviyyatına mənfi təsir göstərir.

Bu insanlar ya biləkdən, ya da bilməyərəkdən öz davranışları ilə boşanmanı təbliğ edirlər. Məsələn, bir şou-biznesçi çıxıb efirdə deyir ki, ərim pul qazana bilmədiyi üçün, ona təpik vurub qapıdan bayıra atdım. Başqa biri deyir ki, mənim istədiyim həyatı mənə yaşatmadığı üçün, ərimdən boşandım, niyə zülm çəkməliydim ki? Yaxud bir başqası "öləm, ər corabı yumaram, qaynana-qaynata qulluğunda durmaram" deyir. Onlar daha nələr demirlər ki? Şou müğənnilərinin boşanması məsələsini həmişə bəzi saytlar xüsusilə işıqlandırırlar. Hansı müğənnidən "niyə boşanmısınız" deyə soruşduqda "ərim rəfiqəmlə mənə xəyanət etdi" deyir. Özü də elə iddia edir ki, onları tanımayanlar dərhal inanırlar. Daha demir ki, ərim mənə rəfiqəmlə xəyanət etmədi, mən rəfiqəmin əri ilə ərimə və rəfiqəmə xəyanət etdim. Onların belə bir etirafını gözləmirəm də...

Bəzən deyirlər ki, gəlin gəlin olmaz, düşdüyü yer gəlin olar. Bu sözdə həqiqət olsa da, çox vaxt gəlinlərin özləri yaxşı ailələrdə də gəlin olmaq istəmirlər. Düşdükləri ocağı şölələndirmək əvəzinə, boşanırlar. Elə götürək bizim bir çox şou müğənnilərini və aktrisaları. Hamısı boşanmalarına səbəb kimi eyni motivi göstərir - xəyanəti. Öz şəxsi həyatları ilə gündəmdə olan şou müğənnilərinin çox böyük əksəriyyəti iddia edir ki, ərlərinin xəyanətinə uğradıqları üçün, boşanma barədə qərar veriblər. Əslində isə çox zaman onlar tərəfindən boşanmanın həqiqi motivi ciddi şəkildə təhrif edilir.



Araşdırıb görürsən ki, bu gün müğənnilik edənlərin çoxu özü boşanmayıb, onları əxlaqsızlıqlarına, xəyanət etdiklərinə görə boşayıblar. Bu adamların çoxunun səhnəyə gələn yolu elə ərlərinə xəyanətdən başlayıb desəm, heç də yanılmaram. Çünki müxtəlif qalmaqallar, dedi-qodular törətməkdə pərgar olan şou əhli keçmiş ərlərinə də asanlıqla şər atırlar. Guya bunlar o qədər qürurlu olublar ki, ərlərinin xəyanətini bağışlaya bilməyiblər. Ocağına, ailəsinə sədaqətli olan qadın heç zaman milyonların qarşısına çıxıb başqasını təhqir etməz, nədəsə suçlamaz. Etiraf etmirlər ki, bizim xarakterimizlə, yaşamaq istədiyimiz həyat tərzi ilə ailə həyatı tutmur. Demirlər ki, biz gecə həyatı yaşamaq, günümüzü barlarda, əyləncə yerlərində keçirmək, qızıl-brilliant içində üzmək istəyirdik, amma ərimiz kasıb olduğundan, ona xəyanət edib pul qazanmışıq, bilib boşayıblar. Özü xəyanətkar olan birilərinin başqalarını xəyanətdə suçlaması həqiqətən də gülüncdür.

Ay şou əhli, sizin əsaslandırmalarınıza, buna əsaslandırma demək mümkündürsə, nəinki insanların, hətta "bişmiş toyuğun da gülməyi gəlir". Bu günlərdə gənc şou-biznesçilərdən biri ağızdolusu ərinin "xəyanətindən" danışdı. Sonra məlum olur ki, onun həmin zaman sevgilisi olub və əri də onu boşayıb. Bu şou müğənnisi demir ki, hansısa bir iş adamı ilə eşq yaşadığına görə iş adamının həyat yoldaşı onu yüzlərlə insanın qarşısında döyüb rüsvay edib, əri isə əlini qana bulamamaq üçün sakitcə boşayıb. Bu gün şou müğənniləri öz populyarlıqlarından istifadə edərək heç kəsin tanımadığı keçmiş həyat yoldaşlarına qarşı ağlasığmaz ittihamlar irəli sürürlər. Onlar da balalarının xatirinə susurlar... Amma danışsalar, ortaya elə dəhşətli faktlar çıxar ki, bu da sözügedən iddiada bulunan şou müğənnilərinin xeyrinə işləməz. Şou müğənnilərin ailə həyatını da, öz talelərini də şouya, şit bir tamaşaya çevirdiyi məlumdur. İstərdim ki, sadə insanlar onların yaşadıqları süni, ruhsuz, saxta həyat tərzindən nümunə götürməsinlər. Çünki gerçəkdən də onların çoxunun həyatı yaxşı deyil, pis nümunədir...

***Leyla QARAXANLI***

## TƏBRİK!



Nə yaxşı doğulmusan,
Günüm, ayımsan, oğlum.
Tanrıya qurban olum,
Şirin payımsan, oğlum.

Bir isti ocağımsan,
Ən doğma qucağımsan.
Mənim ucalığımsan,
Harayım, hayım, oğlum.

Adın Əlidir sənin,
Əməlin aydın olsun.
Arzum budur tez böyü,
Köksüm qürurla dolsun.

Bu gün gözəl, igid Əli balanın ad günüdür. 8 yaşını tamamlayan Əlini atası, anası, nənələri, babaları, dayıları, bütün qohumları ürəkdən təbrik edir, ona cansağlığı arzu edirlər. Təbrikə bacısı Şəlalə, bibisi oğlu Əsgər, xalası oğlu Fərid və xalası qızı Jalə də qoşulur. Ad günün mübarək olsun, əziz balamız!

## Elan

Vəliyeva Anjela Cəmil qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Minacəddinov Zahid Saday oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cabbarlı Fidan Rəhman qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyarzadə Tunar İlqar qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılov Fuad Əsgər oğlunun adına, Abşeron rayonu Məhəmmədli kəndində yerləşən torpaq sahəsinin (JN 847 kod 308000108) dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədov Tofiq Hüseyn oğlunun adına, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən №6070 bağ sahəsinin müvəqiləsi № 21963 itdiyi üçün etibarsız sayılır.

"Yunion-A" MMC-yə məxsus (VÖEN 3101260381), vergi haqqında şəhadətnamə, nizamnamə, reyestrdən çıxarış, möhür və MMC-yə məxsus digər sənədlər itdiyi üçün etibarsız sayılır.

"Razenberq-TT" MMC (VÖEN №1904020761) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində Bakı şəhəri, Suraxanı rayonu, Əmircan ŞTQ, Cəfər Cabbarlı, (Əmircan qəsəbəsi) ev 31 ünvanına bildirə bilərlər.

"Mındaru LTD" MMC (VÖEN № 1904020631) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində Bakı şəhəri, Suraxanı rayonu, Hövsan ŞTQ, Cəbrayıl Xanməmmədov ev 17, mənzil 8 ünvanına bildirə bilərlər.

# İntellektualların "Nar" kuboku uğrunda mübarizəsi davam edir

**Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar"ın baş sponsorluq etdiyi "Breyn Rinq" intellektual yarışlarının on üçüncü mövsümü davam edir. Kubok uğrunda mübarizə aparacaq 3 komandanın adı artıq məlumdur. Onlar "Gəncə", "Nar" və "Kapital" komandalarıdır.**

Qeyd edək ki, bu ilin martından başlayan yarışın on üçüncü mövsümü respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 34 komanda ilə başlayıb. Komandalar yarışın baş sponsoru olan "Nar" tərəfindən təsis edilmiş "Nar" kuboku uğrunda mübarizə aparırlar. "Nar" kubokunun sahibi iyun ayında məlum olacaq. Yarışlar hər həftənin bazar günü, saat 20:00-da İctimai Televiziyada yayımlanır. "Breyn Rinq" həvəskarları bu intellektual yarışı izləməklə yanaşı, həm də "Nar"dan hədiyyə qazanmaq şansı əldə edirlər. Yarış efirdə yayımlandığı saatda "Nar"ın "Facebook"səhifəsində paylaşılan suala ən tez cavab verən şəxslər müxtəlif hədiyyələrlə təltif edilirlər. May və iyun aylarının qalibləri İsrafil Əhmədov, Mikayıl Mikayıllı, Əhməd Kamalov, Üzeyir Mehralı və Vüqar Şirinzadədir. Qeyd edək ki, "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib.

"Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

№ 105 (4003) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

15-18 İYUN 2019-cu il

www.baki-xeber.com

# Britaniyalı alimlәr Yerin Günәşin әtrafında kvadrat orbitdә dövr etdiyini iddia etdi

## Məşhur rəssamın 66 il sonra səs yazısı üzə çıxdı

Meksika Milli Kitabxanasının әmәkdaşları dünyaca mәşhur rәssam Frida Kalonun yeganә sәs yazısını tapıblar. "Qafqazinfo" xәbәr verir ki, onun sәsini indiyәdәk heç kim eşitmәyib. Sözügedәn sәs yazısı 1953-1954-cü illәrә tәsadüf edәn "El Bachiller" radio şousunda lentә alınıb. Burada Kalo әri Dieqo Riverә hәsr olunmuş "Portret Dieqo" essesini sәslәndirir. Meksikanın mәdәniyyәt naziri Aleksandr Frausto bildirib ki, sәsin Kaloya aid olduğu mütәxәssislәr tәrәfindәn tәsdiqlәnsә, bu, onun qorunub saxlanılmış yeganә sәs yazısı olacaq. Qeyd edәk ki, daha әvvәl Frida Kalonun namәlum әsәrinin hәrracda 1,8 milyon dollara satıldığına dair xәbәr yayılıb.

## Bu içki ürəyə çox faydalıdır - Alimlər açıqladı

Duzsuz tomat şirәsi içmәk ürәk-damar sistemi xәstәliklәri riskini azaldır. "Ölkә.az" bildirir ki, bunu yapon alimlәrin son tәdqiqatları sübut edib. Elm adamlarından ibarәt qrup 184 kişi vә 297 qadın üzәrindә tәcrübә aparıb. İl әrzindә sınaqda iştirak edәn şәxslәr bir il әrzindә bu içkidәn istifadә ediblәr. Tәcrübәnin sonunda mütәxәssislәr pasientlәrin ürәk vә damarlarının vәziyyәtini yoxlayıblar.

Mәlum olub ki, 94 iştirakçıda arterial hipertenziya vә qan tәzyiqi kifayәt qәdәr azalıb. Bundan başqa, 125 könüllüdә yüksәk olan xolesterinin miqdarı azalıb.

**Britaniyanın Oksford Universitetinin alimlәri yeni iddia ilә çıxış ediblәr. "Ölkә.az" xәbәr verir ki, iddiaya әsasәn, planetimiz Günәşin әtrafında kvadrat orbitdә dövr edir.**

Mәlum olub ki, bu günә qәdәr Yerin Kainatdakı digәr planetlәr kimi elliptik orbitә mәxsus olması düşünülürdü. Əslindә planetlәr öz ulduzlarının әtrafında kvadrat trayektoriya ilә dövr edirlәr. Alimlәr bildirirlәr ki, yay vә qışda gündönümünün sayı elliptik orbitә uyğun deyil. Belә halda, 2-3 gün uzanmalı idi, әslindә isә bir gün kifayәt



edir. Kvadratın küncü isә bir sutkaya kifayәt edir. Bundan başqa, alimlәr bildirirlәr ki, il әrzindә gündönümü iki yox, dörddür. Hәr üç aydan bir gündönümü baş verir. Bu isә kvadratın dörd küncü demәkdir.



## Yarasa qanadları olan dinozavr...

**Skansoriopteriqid adlı ailәyә aid olduğu kәşf edilәn Ambopteriks lonqibrasium, 163 milyon il әvvәl Çinin meşәlәrindә yaşamış kiçik bir növdür.**

Keçәn illәrdә eyni bölgәdә fәrqli bir növün dә qalığına rast gәlinmişdi. National Geographicin nümayiş etdiyi yeni bir xәbәr, Çindә yeni bir dinozavr növünün kәşf edildiyini eşitdirdi. "Nature" adlı jurnalda nümayiş olunan iş, 'Ambopteriks lonqibrasium' adlı dinozavra aid qalıqların 2017-ci ildә tapıldığını ifadә etdi. Ambopteriks lonqibrasium adlı bu cür, günümüzdәki yarasaların qanadlarıyla eyni pәrdәyә sahibdir vә 32 santimetr uzunluğundadır. 163 milyon il әvvәl Çindә yaşadığı düşünülәn bu kiçik dinozavr, "Skansoriopterigid" adlı dinozavr ailәsinin alt növünә mәnsubdur. Ambopteriks lonqibrasium kәşf edildiyi araşdırmada vәzifә alan Min Vanq, qalıqda yarasa qanadlarına rast gәlinmәsinә baxmayaraq, bu növün uçma bacarığına sahib olmadığını ifadә etdi. Tәbii ki, bu, yalnız fәrziyyәdir.

## Sevgilisindən ayrılanda həyatdan küsür...

Fransada aparılan bir tәcrübә nәticәsindә mәlum olub ki, dişi xanı balığı "әrindәn" ayrı qaldıqları zaman insanlarda olduğu kimi depresiyaya düşür.

"Ölkә.az" bildirir ki, nәticәlәrә әsasәn, dişi zolaqlı xanı balığı sevgilisindәn ayrılanda hәyata daha ümidsiz yanaşır. Tәcrübә Dijon şәhәrindәki "Burqundi" Universitetinin tәdqiqatçıları tәrәfindәn aparılıb. Onlar bir akvariumu şәffaf üç hissәyә ayırıblar. Əvvәlcә dişi balıqlar bir-bir ortadakı hissәyә qoyulub. Sonra isә erkәk balıqlar uclardakı digәr hissәlәrә yerlәşdirilib.

Dişi balıqların çoxunun bәyәndiklәri vә seçdiklәri balığa tәrәf çöndüyü mәlum olub. Onları bir yerә salıblar, sonra isә ayırandа dişi balıq yem axtarmaqda passiv olub vә depressiyaya düşüb. Tәcrübәnin ikinci mәrhәlәsindә isә balıqların hansı rәngli qabdan yem toplamaları müşahidә edilib.





**Qoç** - İşdә әla nәticәlәrә nail olmaq imkanı var. Rәqiblәri üstәlәyә, bәdxahları tәrksilah edә bilәrsiniz. Risk istisna deyil. İntuisiya sizә nә zaman aktiv fәaliyyәtdә olmağı, nә zaman da kölgәyә çәkilәrәk gözlәmәyi deyәcәk.



**Buğa** - Yeni işә vә ya layihәyә başlamaq üçün әlverişli gündür. Çәtinliklәri dәf etmәk üçün orijinal yollar vә üsullar arayın. İşdә kollektivin üzvlәri ilә münasibәtlәr nizamlanır.



**Əkizlər** - Orijinal vә qeyri-standart qәrarlar qәbul edin. Yaxın әtrafınızdakı insanlar addımlarınızı anlamayacaqlar. Narahat olmayın, yolunuza davam edin. Ailә üzvlәri ilә münasibәtlәr rәvan deyil.



**Xərçəng** - Sәfәr, sәyahәt, ezamiyyәt üçün uğurlu gündür. Yaşam arealının dәyişmәsi әhvalınızı yaxşılaşdırmaqla yanaşı, yaradıcıldıq potensialınızı da artırır. Gözәl ideyalarınız peyda olacaq.



**Şir** - Qәfil görüş baş tuta bilәr. Bu tәmas xoş olmasa da, faydalıdır. Gün çoxsaylı tanışlıqlar vәd edir. Sizi paltara görә qarşılayacaqlar vә buna görә dә zahiri görünüşünüzә fikir verin. Əşyalarınızı nәzarәtdә saxlayın.



**Qız** - Nahamar, gәrgin gündür. Çәtin qәrarlar qәbul etmәli, yaxın әtrafınızdakı insanların tәqdir etmәyәcәyi addımlar atmalı olacaqsınız. İşdә konkret layihә vә ya plan baş tutmayacaq. Rәhbәrliklә söz güläşdirmәyin, hәmkarlarla mübahisә etmәyin.



**Tərəzi** - Orijinal hәllәr, qeyri-standart addımlar günüdür. Orijinallıq vә gözlәnilmәzlik sizә uğur qazandıra bilәr. Yeni tanışlıqlar faydalıdır. Onlar yaxın gәlәcәkdә hәyatınızda köklü dәyişikliklәrin rәhni ola bilәr.



**Əqrəb** - Nüfuzlu şәxslә ünsiyyәt vә yeni maliyyә imkanlarının aranması üçün yaxşı gündür. Müttәfiq vә şәrik arayın. İşdә mövqelәrinizi möhkәmlәndirin. Daha çox maaş ala bilәcәyiniz, nüfuzlu iş yeri barәdә dә düşünә bilәrsiniz.



**Oxatan** - Risk etmәyin. Düşünülmәmiş addımlar vә impulsiv hәrәkәtlәr üçün әlverişli gün deyil. Sınanmış, etibarlı üsullar seçin, rahat yolla irәlilәyin. İşdә xoşagәlmәz sürprizlәr, rәhbәrliklә münaqişә ola bilәr.



**Oğlaq** - Ehtiyatlı vә sәrvaxt olun. Ciddi, çәtin sınaqlar dönәmidir. Bütün işlәrdә dәqiq vә sәliqәli olun. Ən kiçik sәhvin belә, böyük fәsadları ola bilәr. İşdә rәhbәrlik sizә qarşı çox tәlәbkardır. Kollektivdә münasibәtlәr gәrginlәşir.



**Dolça** - Niyyәtlәrinizi reallaşdırmağa tәlәsmәyin. Az sonra planları gerçәklәşdirmәk üçün uğurlu şәrait yaranacaq. Peşәkar mövqelәrinizi möhkәmlәndirmәk imkanı var. Amma vicdanınızın sәsinә qulaq asın.



**Balıqlar** - Uğurlu gündür. Başladığınız işlәr alınacaq. Yaxın әtrafınızdakı insanların öhdәsindәn gәlә bilmәdiklәri problemi hәll edәcәksiniz. Fәaliyyәt sahәsini genişlәndirә bilәrsiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Gündə iki stəkan çay içmək... - İçdiyimiz çayın bilmədiyimiz faydaları

**Çay Şәrq cәmiyyәtlәrinin vazkeçilmәz içkisidir. Xüsusәn dә Azәrbaycanda çay içmәk hәyatımızın ayrılmaz hissәsinә çevrilib.**

"Ölkә.az" bildirir ki, zaman-zaman çayın faydaları vә ziyanı barәdә müzakirәlәr aparılıb. Bu yaxınlarda isә alimlәr çayın bu günә qәdәr bilinmәyәn yeni faydalarını aşkar ediblәr. Çayın tәrkibindәki polifenol vә kateşinlәr bәzi xәrçәng növlәrinin qarşısını alır. Bundan başqa, çayın tәrkibindәki polifenol DNA xәstәliklәrinin qarşısını alır. Çay qarın bölgәsindә yaranan yağlanmanın qarşısını alır. Gündә әn azı 2 stәkan çay içmәk stres hormonu olan kortizolun miqdarını azaldır. Çayın tәrkibindәki fito kimyәvi maddәlәr sümüklәrә faydalıdır vә sümük qalınlığını artırır. Çay arıqlamaq istәyәnlәr üçün dә faydalıdır. Gündә iki stәkan açıq rәngli vә limonlu çay orqanizmin antioksidant ehtiyacını tәmin edir. Elmi tәdqiqatlar nәticәsindә mәlum olub ki, çayın tәrkibindәki L-Theanine sayәsindә orqanizm rahatlıq әldә edir. Qeyd edәk ki, tәcrübәlәrdә sağlam insanlar iştirak edib. Ürәk, qan tәzyiqi problemi olanlar isә hәkimlә mәslәhәtlәşmәlidirlәr.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.